

Milli azadlıqdan şirin nemət yoxdur!

# Türk dövlətlərinin birgə inkişaf perspektivləri



Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 noyabr 2024-cü il, bazar
№ 210 (6796)
Qiymәti 60 qәpik

# 17 noyabr - iki tarixi yaşadan gün...



Bax səh. 2

# Hücum kampaniyaları təşkil edənlərə layiqli cavab...

Bax səh. 5



Bax səh. 4

## YAP nümayəndə heyətinin Çinə səfəri davam edir

## Anar Prezidentə müraciət etdi: “Onlar özləri...”

Bax səh. 3



Bax səh. 2

## COP29 çərçivəsində Parlament Görüşü...

## COP29 dünya mediasının diqqət mərkəzindədir

Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünya ölkələrinin mediası tərəfindən geniş işıqlandırılır. Rumıniya, Bolqarıstan, Xorvatiya və Yunanıstanın aparıcı mətbu orqanları da COP29-u diqqət mərkəzində saxlamaqda davam edir.

**Rumıniya, Bolqarıstan, Xorvatiya və Yunanıstanın KİV-ində nə yazılıb?**

Rumıniyanın AGERPRES milli xəbər agentliyi, DİGİ24 televiziyası və xəbər portalı, Bursa qəzeti, Mediafax xəbər agentliyi, Bolqarıstanın BTA milli xəbər agentliyi, “Dariknews” xəbər portalı, BTV televiziya kanalı, Dir.bg xəbər portalı, Yunanıstanın “Capital”, “Eretikos”, “İmidones”, “Sofokleous” xəbər portalı, Xorvatiyanın “Jutarni List”, “Vecerniy”, “Dnevnik”...

Bax səh. 3

## Nəhəng Anlaşma

COP29 çərçivəsində Dövlət Neft Şirkəti (SOCAR), Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Masdar” və Səudiyyə Ərəbistanın “ACWA Power” şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda 3,5 giqavatlıq (GVt) külək elektrik enerjisi istehsalı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Nəzərdə tutulan layihə çərçivəsində Azərbaycanda dənizdə ilk külək stansiyaları inşa olacaq. Bu sənəd tərəflər arasında ötən il Naxçıvanda ümumi gücü 500 MVt olan bərpaolunan enerji mənbələri layihələrinin həyata keçirilməsi ilə bağlı tərəfdaşlığın genişləndirilməsinə xidmət edir.

Beləliklə, 3 dost ölkənin birgə enerji alyansı yaranmış olacaq. Hər iki körfəz ölkəsi Azərbaycanın yaxın tərəfdaşı kimi COP29-da yeni birliyin də əsasını qoymuş oldu.

Azərbaycan həm Birləşmiş Ərəb Əmirliyi, həm də Səudiyyə Ərəbistanı ilə sıx dostluq münasibətləri quraraq son illərdə...

Bax səh. 6

## Üç marşrut, bir dəhliz

Bakıda keçirilən COP29 sammiti çərçivəsində bərpaolunan enerjinin istehsalı və nəqli ilə bağlı çoxtərəfli görüşlərin keçirilməsi, Azərbaycanın mərkəzi coğrafi nöqtə olmaqla, region ölkələrinin “yaşıl enerji” potensiallarının vahid dəhlizlərdə birləşdirilməsi əsas aparıcı mövzu kimi diqqəti cəlb etməkdədir. Ötən 2 gündə Azərbaycan hökuməti ilə Türkiyə, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Rumıniya, Macarıstan, Bolqarıstan və Avropa İttifaqının nümayəndələri arasında aparılan danışıqların məzmunu birgə “Yaşıl Enerji Platforması”nın qurulması ilə bağlı olub.

“Yaşıl Platforma” böyük coğrafiyaları və 10-a yaxın ölkəni əhatə etməklə bərpaolunan enerji mənbələrinin istehsalı, tədarükü və ixracını təmin edən marşrutların vahid bir dəhlizdə birləşdirilməsini nəzərdə tutur.

Platformanın əsas komponentlərindən biri Azərbaycan, Qazaxıstan və Özbəkistanın bərpaolunan enerji güclərinin bir nəql...

Bax səh. 6

## Ermənistanın müharibə cinayətləri beynəlxalq müstəvidə ifşa olunur

Ermənistanın işğalçı siyasəti dövründə azərbaycanlıların qətlə yetirilməsi və kütləvi şəkildə basdırılmasını sübut edən faktların sayı artmaqdadır. 30 illik işğalçılıq zamanı xalqımıza qarşı saysız-hesabsız cinayətlər törədilib. Bu cinayətlər sırasında Birinci Qarabağ müharibəsi dövründə 4 minə yaxın azərbaycanlının itkin düşməsi və onlara qarşı qeyri-insani rəftar xüsusi yer tutur. Ermənistan hələ də onların taleyi haqqında heç bir məlumat vermir. Bu isə beynəlxalq cinayətdir. Ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunduqdan sonra erməni vəhşiliyi faktlarla ortaya çıxır. İşğaldan azad edilmiş ərazilərimizdə kütləvi məzarlıqların aşkar edilməsi də bunu təsdiqləyir.

Xatırladaq ki, ilk olaraq Fərrux yüksəkliyində, Daşaltı kəndində, Xocavənd...

Bax səh. 4



## Avropa “val”ı dəyişir...

Bax səh. 7



## Erməni “bağça”sının calağı...

Bax səh. 7

# 17 noyabr - iki tarixi yaşadan gün...

## Milli Dirçəliş Günü ölkənin bütün ərazisində qeyd olunur

Noyabrın 17-si müstəqil Azərbaycan üçün tarixi önəm daşıyan bir gündür - bu gün xalqımız böyük qürur hissi ilə Milli Dirçəliş Gününü qeyd edir. Dünyada 200-dək dövlət var. Xalqların sayı isə bundan dəfələrlə çoxdur. İndiyədək müstəqil dövlətini qurmaq heç də bütün xalqlara müyəssər olmayıb. Azərbaycan xalqı xoşbəxtdir ki, müstəqil dövləti var və öz taleyinin sahibidir.

Artıq üç onillikdən çoxdur ki, respublikamız müstəqillik yolu ilə inamla irəliləyərək yeni-yeni nailiyyətlərə imza atır. Hazırda müstəqil Azərbaycan bütün dünyada ləyaqətli, milli maraqlarını qətiyyətlə qoruyan, böyük hörmətə malik bir dövlət kimi tanınır. Son olaraq BMT-nin ən böyük tədbirlərindən biri olan COP29-a ev sahibliyi hüququnun ölkəmizə verilməsi və hazırda Bakıda çərçivəyə sığmayan, dünya liderlərinin də yüksək qiymətləndirdikləri konfransın uğurla davam etməsi müstəqil Azərbaycanın gücünü, qüdrətini, beynəlxalq səviyyədə artan nüfuzunu əyani şəkildə təcəssüm etdirir. Müstəqilliyimizə gedən yol isə heç də hamar olmayıb, bir sıra çətin sınaqlardan keçmişik. Bununla belə, xalqımızın müstəqil dövlət qurmağa, azad yaşamağa inamı və mücadilə aparması bütün çətinlikləri dəf etməyə imkan verib.

### Müstəqilliyimiz üçün Heydər Əliyevin yaratdığı güclü iqtisadi və ideoloji zəmin

Müstəqillik üçün zəruri əsaslar, o cümlədən iqtisadi və ideoloji zəmin yaradılmalıdır. Bunsuz nə müstəqilliyi qazanmaq, nə də onu qoruyub saxlamaq mümkün deyil. Azərbaycan üçün belə fundamental əsasları xalqımızın müdrik oğlu, böyük siyasətçi Heydər Əliyev yaradıb. Onun respublikamıza rəhbərliyi iki fərqli ideoloji formasiyaya təsadüf edir. Onlardan biri sərt qadağaların, milli məhdudiyyətlərin hökm sürdüyü keçmiş sovet dönəmi, digəri isə müstəqilliyimizin ilk illəridir. Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi onda idi ki, O, hər iki dönəmdə Azərbaycanın müstəqilliyi naminə böyük işlər görməyi bacarmışdır. Birinci mərhələdə Heydər Əliyev keçmiş sovet dönəminin sərt qadağalarına baxmayaraq, xalqımızın özünüdərk hissinin gücləndirilməsi üçün məqsədyönlü fəaliyyət həyata keçirirdi. Heydər Əliyev 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 18 minədək azərbaycanlı gəncin yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına nail oldu. Həmin kadrlar sonradan müstəqil Azərbaycanın idarə olunmasında fəal iştirak edəcəkdilər. Heydər Əliyev keçmiş ittifaqdakı nüfuzundan istifadə edərək bir sıra iqtisadi layihələrin məhz respublikamızda reallaşdırılmasına nail oldu. Bunlar isə gələcək müstəqil Azərbaycan üçün güclü iqtisadi dayaqlar idi.

Heydər Əliyevin Azərbaycanın sabahı naminə misilsiz fəaliyyəti bütün mühüm istiqamətləri əhatə edirdi. Bu sırada Onun milli mədəniyyətə, ədəbiyyata, Azərbaycan dilinə böyük qayğısını xüsusi qeyd etmək lazımdır. Uzaqgörən siyasətçi Heydər Əliyevin səpdiyi toxumlar ötən əsrin səksəninci illərinin sonlarından etibarən cücərməyə başladı. Onun zamanında məqsədyönlü şəkildə yaratdığı zəngin irs sonralar müstəqil Azərbaycanın iqtisadi, mədəni və ideoloji əsaslarına çevrildi.

İş elə gətirdi ki, sonradan Azərbaycanın 1991-ci ildə qazandığı müstəqilliyinin qorunması missiyasını da Heydər Əliyev yerinə yetirdi. 1993-cü ilin yayında müstəqilliyimizin əldən getməsi təhlükəsi tam real idi. Belə çətin şəraitdə xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıdan Heydər Əliyev atdığı qətiyyətli addımlarla müstəqilliyimizi qorumağa və hadisələri müsbət məcraya yönəltməyə nail oldu.




Bundan başqa, 17 Noyabr - Milli Dirçəliş Günü həm də üçrəngli bayrağımızın dövlət rəmzlərindən biri kimi qəbul olunmasını simvolizə edir. Üçrəngli bayrağımızın yenidən Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul edilməsi isə bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımız üçrəngli bayrağımızın yenidən dövlət rəmzi kimi təsdiqlənməsinin səvincini Naxçıvan Ali Sovetinin Heydər Əliyevin Sədrliyi ilə keçirilən 1990-cı il 17 noyabr tarixli sessiyasında çıxarılan tarixi qərarlarla yaşadı. Sessiyada Heydər Əliyevin təşəbbüsü əsasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı və dövlət rəmzi kimi qəbul olundu. Bu, Heydər Əliyevin milli təəssübkeşliyinin, vətənpərvərliyinin və cəsarətinin ifadəsi idi. Bu tarixi hadisə imperiyanın hələ ayaqüstə olduğu, qılıncının dalının da, qabağının da iti kəsdiyi bir dövrdə baş vermişdi. Sonradan - 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi.

### Xalq bir yumruq kimi birləşmişdi

Sərt qadağalarla, süni təbliğatla idarə olunan keçmiş ittifaqın nə vaxtsa süqutu labüd idi. Onilliklər boyunca gizli gedən bu proses ötən əsrin sonlarına doğru müəyyən formalarda açıq şəkildə təzahür etməyə başladı. Milli ideyaları əxz edən, özünəinam hissi artan Azərbaycan xalqı bəhs olunan dövrdə böyük bir imperiyada başlayan proseslərin aktiv iştirakçıları sırasında yer alırdı. Azərbaycanda milli-azadlıq hərəkatı Ermənistanın respublikamıza qarşı ərazi iddiaları fonunda açıq müstəviyə keçdi. 1988-ci ilin əvvəlindən etibarən Ermənistanın Azərbaycana qarşı təcavüzü başlandı. Moskvanın, xüsusən də SSRİ-nin o dövrdəki rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Ermənilər, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törədilər. Onlar tarixi torpaqlarımız olan Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirilməsini tələb edirdilər. Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. 1988-ci il noyabrın 17-də Bakının əsas meydanı sayılan indiki Azadlıq meydanında keçmiş sovet hakimiyyətinin xalqımıza qarşı apardığı siyasətə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin izdihamlı mitinqi başlandı. Mitinq iştirakçıları respublikamıza qarşı ərazi iddiaları irəli sürən Ermənistanla iqtisadi əlaqələrin kəsilməsini, Topxanada görülən işlər barədə ətraflı məlumat verilməsini, Ağdam şəhərində qadağa saatının ləğv edilməsini, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində partiya və sovet orqanlarının buraxılmasını, orada Azərbaycanın hüquqi və siyasi hakimiyyətinin bərpa olunmasını və digər tələbləri irəli sürürdülər. Bütün xalq bir yumruq kimi birləşmişdi. Bu, əsl xalq, milli azadlıq hərəkatı idi. Respublikanın, bütün Azərbaycanın ürəyi Azadlıq meydanında döyünürdü. Həmin gün haqqında danışan Heydər Əliyev deyib ki, xalqın qanında yaşayan azadlıq istəyinin, müstəqillik arzusunun qabağını heç bir qüvvə, hətta ən güclü sel belə kəsə bilməz.

Noyabrın 17-də başlayan izdihamlı mitinqlər günlərlə gecə və gündüz davam etdi. Dekabrın əvvəllərində keçmiş sovet qoşunları ümumxalq mitinqini dağıtmağa nail olsalar da, sonradan xalqımızın müstəqillik uğrunda mübarizəsi dönməz bir məcraya yönəldi.

### Müstəqillik yolunda qazandığımız möhtəşəm qələbələr

44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığımız möhtəşəm qələbələr müstəqillik yolunda nail olduğumuz ən böyük uğurlarımızdır. Vətən müharibəsində qazanılan böyük Qələbə sayəsində Azərbaycan ərazi bütövlüyünü hərbi siyasi yolla bərpa etdi. 2023-cü il sentyabrın 19-da isə Ordumuz separatçıların yuva saldıqları ərazilərimizdə lokal xarakterli antiterror tədbirləri keçirdi və cəmi 23 saat ərzində onu uğurla tamamladı. Separatçılar ağ bayraq qaldırmaq məcburiyyətində qaldılar.

Prezident İlham Əliyev Onun üçün əlamətdar olan bir gündə - dövlət başçısı seçilməsinin 20-ci ilinin tamam olduğu 15 oktyabr 2023-cü il tarixində üçrəngli bayrağımızı Xankəndidə də ucaltdı və bununla da xalqımıza növbəti dəfə sonsuz sevinc və qürur hissi yaşatdı. Artıq Azərbaycan xalqı Milli Dirçəliş Gününü böyük qürur hissi ilə ölkənin bütün ərazisində qeyd edir. Respublikamızda Milli Dirçəliş Gününün yüksək səviyyədə qeyd olunmasına dövlət səviyyəsində böyük diqqət göstərilir. Təsadüfi deyildir ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər il Milli Dirçəliş Günü ilə bağlı sosial şəbəkə hesabında paylaşımlar edir ki, bu da onun müstəqilliyimizə verdiyi böyük dəyərin ifadəsidir.

***Mübariz ABDULLAYEV***

# COP29 çərçivəsində Parlament Görüşü...

Noyabrın 16-da Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü işə başlayıb.

Tədbiri giriş nitqi ilə açan Milli Məclisin sədri Sahibə Qafarova qonaqları salamlayaraq tədbirdə milli parlamentləri, parlamentlərarası təşkilatları, habelə müxtəlif təsisatları təmsil edən 90-a yaxın nümayəndə heyətinin iştirak etdiyini bildirib. Qeyd olunub ki, bu, zəmanəmizin ən aktual problemi olan iqlim dəyişikliyi məsələsinin həllindəki qətiyyətimizin və fədakarlığımızın göstəricisidir. COP29 çərçivəsində Parlament Görüşünün təşkil olunması fikrinin Parlamentlərarası İttifaqın Baş Katibi Martin Çunqonq tərəfindən irəli sürüldüyünü bildirən Milli Məclisin sədri, dəyərli təşəbbüsə görə ona təşəkkür edib və deyib ki, bu tədbir Azərbaycanın keçən ilin dekabrında yekdilliklə COP29-a ev sahibliyi edən ölkə kimi seçilməsindən sonra mümkün olub.



Spiker söyləyib ki, Azərbaycanın COP29-a ev sahibi qismində seçilməsi, dünya ictimaiyyətinin ölkəmizin körpü qurucusu kimi çıxış etmək, icmaları və ölkələri ortaq bir məram ətrafında birləşdirmək bacarığına və təcrübəsinə olan inamının nəticəsidir. Qonaqların diqqətinə çatdırılıb ki, digər ölkələrlə müqayisədə hazırlıqlar üçün daha az vaxt - yalnız 11 ay olmasına baxmayaraq, COP29 Azərbaycan Sədrliyi bütün maraqlı tərəfləri cəlb etmək, onların ehtiyaclarını dinləmək və gözləntilərini anlamaq istiqamətində böyük işlər görüb.

Təəssüf hissi ilə qeyd olunub ki, bu hazırlıqlar zamanı ölkəmiz bəzi dövlətlər və media platformaları tərəfindən qərəzli və əsassız ittihamlarla, ikili standartlarla, dezinformasiya kampaniyaları ilə üzləşib. Bu fəaliyyətlərdə az sayda milli parlamentlər və parlamentlərarası təşkilatlar da rol oynayıblar. Parlamentin spikeri bildirib ki, bəziləri ümumi çağırışlar qarşısında dialoqun, əməkdaşlığın və həmrəyliyin gücünü unudurlar. Digər tərəfdən, onlar hələ də başa düşmürlər ki, mühüm əhəmiyyətə malik olan iqlim dəyişikliyi məsələsi, onların dar maraqlarını və siyasi motivli ambisiyalarını nümayiş etdirmək üçün platforma rolunu oynaya bilməz.

Spiker çıxışında qeyd edib ki, bu xoşagəlməz hallara baxmayaraq, COP29 uğurla işinə başlayıb və bütün maraqlı tərəflərin iştirakı ilə öz işini davam etdirir.

Çıxışında "Qlobal iqlim səylərində parlamentlərimizin, bizim rolumuz nədir?" suallarını səsləndirən S. Qafarova vurğulayıb ki, bu suallar ritorik suallar deyil və onların cavabları mövcuddur: "Parlamentlərimiz hökumətlərimizə iqlimlə bağlı fəaliyyətin inkişafında dəstək olmaq üçün qanunvericilik, büdcə və ya nəzarət vasitəsilə lazım olan alətlərə malikdirlər. Əminəm ki, parlamentlərimizin əksəriyyəti artıq emissiyaların azaldılması, enerji keçidi və "yaşıl inkişaf"la bağlı qanunlar qəbul ediblər".

Çıxışının sonunda Milli Məclisin sədri əminliyini ifadə edib ki, ölkələrimiz daha güclü tərəfdaşlıq, dəstək və öhdəliklərlə yaşıl dünya, daha yaxşı və davamlı gələcək naminə həmrəyliklə irəliləyəcək.

Çıxış edən Tanzaniya Birləşmiş Respublikası Milli Assambleyasının sədri, Parlamentlərarası İttifaqın (PAİ) prezidenti Tulia Akson Azərbaycanın COP29-a yüksək səviyyədə ev sahibliyi etdiyi üçün təşəkkür edib. Onun sözlərinə görə, bu, qlobal əməkdaşlıq üçün gözəl imkan yaradır. Biz burada inklüzivlik və tərəfdaşlıq ruhunda iqlim böhranının öhdəsindən gəlməliyik. Daim çalışırıq ki, beynəlxalq dialoqu gücləndirək, insan hüquqlarını gündəmə gətirək, daha ədalətli dünya quraq.

"İqlim dəyişikliyi həyatımızın bütün aspektlərinə təsir göstərir. Biz çalışmalıyıq ki, planetimizi qoruyaraq gələcək nəslə çatdıraq. Son illərdə dünyada bir çox aşırı hava şəraitləri yaşanıb. İqlim dəyişməsi məsələsi doğrudan da böhran vəziyyətinə gəlib çatıb. Dünyanın müxtəlif regionlarında meşə yanğınları, infrastrukturun dağıdılması, təbii fəlakətlər baş verib və nəticədə 30 milyona yaxın insan məcburi köçkünə çevrilib", - deyə Tulia Akson qeyd edib.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev isə çıxışında deyib ki, həm nəzarət, həm məsuliyyət qoymaqla və qanunvericiliyi təkmilləşdirməklə daha güclü iqlim tədbirlərini həyata keçirmək olar: "Parlamentlər milli büdcələri təsdiq edir, iqtisadi qərarların qəbulunda əhəmiyyətli rol oynayır. Bu iqlim dəyişmələrinə qarşı dayanıqlı dünyanın qurulmasında vacib məsələdir. Bütün xalqların təhlükəsizliyi və rifahı hər şeydən önəmlidir. Biz istərdik, COP-dan evə qayıdandan sonra siz ölkənizdə iqlim təhlükəsizliyi ilə bağlı siyasətin təşkilində öz rolunuzu verə biləsiniz".

"İqlim dəyişikliyi problemi dünyada bütün insanlar üçün əsas aktual narahatlıqdır. Parlamentlər vətəndaşların həyatını dəyişdirən konkret addımları dəstəkləyə bilər. Yaşanıla bilən dünya uğrunda mübarizədə konkret fəaliyyətə keçilməlidir". Bu fikirləri isə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil deyib. Dayanıqlılığın artırılmasından, daha sağlam həyat standartlarının təmin olunmasından da bəhs edən icraçı katib vurğulayıb: "Biz insanlara daha da irəli getməyə imkan verən siyasətlərə ehtiyac duyuruq. Həm də bilirik ki, təkcə ambisiya kifayət etməyəcək. Hər bir ölkə kifayət qədər ambisiyalı olmalıdır. Maliyyələşdirmə məsələsi çox önəmlidir, xüsusilə iqlim maliyyəsindən əziyyət çəkən ölkələr üçün. Hər bir ölkədə qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi önəmlidir".

Saymon Stil qeyd edib ki, hazırda 8 milyarddan çox insan iqlim dəyişikliyindən əziyyət çəkir. İqlimlə bağlı bu cür tədbirlər həqiqi iqtisadi nəticəsi olan prosesə çevrilməlidir. İcraçı katib COP29 çərçivəsində G20 liderlərinə də müraciət edib. O, iqlim dəyişikliyinin yaratdığı qlobal böhranın həlli istiqamətində təcili və daha təsirli tədbirlər görülməsinin vacibliyini vurğulayıb: "Gələn həftə Rio-de-Janeyroda keçiriləcək G20 Zirvəsi önəmli bir mesaj üçün fürsətdir. İqlim böhranı dünyanın ən böyük iqtisadiyyatlarının əsas gündəlik məsələsi olmalıdır. Əks halda, bu böhran bütün ölkələrə dərin iqtisadi və sosial təsir göstərəcək".




BMT rəsmisi deyib ki, Bakıda keçirilən COP29 çərçivəsində yeni iqlim maliyyəsi hədəfi üzərində danışıqlar davam edir. G20-nin iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynadığını vurğulayan S.Stil liderləri daha çox qrant və güzəştli maliyyənin ayrılmasına, çoxşaxəli inkişaf banklarının islahatlarının sürətləndirilməsinə və borc yüklərinin yüngülləşdirilməsinə çağırıb. O qeyd edib ki, həssas ölkələr borc ödəmə yükündən azad olmadan daha cəsarətli iqlim tədbirləri həyata keçirə bilməz. "Bu qeyri-sabit dövrdə beynəlxalq əməkdaşlıq insanlığın qlobal istiləşmədən xilas olmaq üçün yeganə şansıdır. G20 liderləri birmənalı mesaj verməlidirlər ki, birlikdə işləməkdən başqa çıxış yolu yoxdur", - deyə Saymon Stil əlavə edib.

Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq bildirib ki, parlamentlərin iqlimlə bağlı mühüm işlər görmək potensialı var: "Biz parlamentləri iqlimə uyğun qanunvericiliyi dəstəkləmək üçün səfərbər etmək istəyirik. İstəyirik ki, parlamentlər resursları səfərbər etsinlər, iqlimlə bağlı tədbirlər üçün vəsait ayırsınlar. Dövlətlər bu tədbirlərdə bağlanılan sazişlərə görə cavabdeh olmalıdırlar. Biz Parlamentlərarası İttifaq vasitəsilə parlamentləri səfərbər etməyə çalışacağıq ki, iqlim dəyişikliyi dalğasının qarşısını almaq üçün tədbirlər görülsün və bunun hamı üçün ədalətli şəkildə həyata keçirilməsini istəyirik".

Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva isə bildirib ki, parlamentlər üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. Miqrasiya, ərzaq təhlükəsizliyi kimi məsələlər çox önəmlidir. İqlim dəyişmələrinin aradan qaldırılmasında maliyyələşdirmə ən vacib məsələdir. T.Narbayeva ölkəsində iqlim dəyişmələrinə qarşı həssas olan icmalar üçün həyata keçirilən işlər barədə də danışıb, regionda dayanıqlılığın daha da möhkəmləndirilməsinin əhəmiyyətinə toxunub.

Sonra tədbir iştirakçılarına iqlim dəyişmələrinin real təsirlərinə həsr olunmuş videoçarx nümayiş etdirilib, mövzu ətrafında çıxışlar dinlənilib.

Daha sonra Parlament Görüşü sessiyalarda öz işini davam etdirib. Sessiyalarda "İqlim öhdəliklərinin reallığa çevrilməsi üçün təsirlərin azaldılması ilə bağlı iddialı tədbirlərin artırılmasında və milli səviyyədə müəyyən edilmiş töhfələrin həyata keçirilməsində parlamentlərin rolu", "İqlim maliyyələşdirilməsinin qlobal arxitekturasının inkişafı", "İqlim dəyişmələrinə qarşı dayanıqlılığın artırılması, bu sahəyə həртəfli və ədalətli yanaşmanın təşviqi", "İqlim dəyişmələri ilə mübarizə aparmaq və ədalətli çıxışı təmin etmək məqsədilə texnologiyadan istifadə", "Dəyişən iqlim şəraitində sağlamlıq və qida təhlükəsizliyi səyləri", "İnsan yerdəyişməsinin və iqlim dəyişmələrinin idarə edilməsi" və digər mövzularda müzakirələr aparılıb.

Müzakirələrdə çıxış edən bir sıra ölkələrin parlament rəhbərləri, deputatlar, beynəlxalq təşkilatların nümayəndələri COP29-un iqlim dəyişmələrinə qarşı mübarizədə əhəmiyyəti barədə danışıblar, tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürlərini bildiriblər.

Tədbir zamanı Azərbaycan Respublikasının Milli Məclisi ilə Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament arasında Anlaşma Memorandumu imzalanıb.

Tədbir noyabrın 17-də başa çatacaq.

***N.BAYRAMLI***

# Anar Prezidentə müraciət etdi: “Onlar özləri...”

**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevə müraciət ünvanlayıb.**

“Yeni Azərbaycan” “525-ci qəzet”ə istinadən müraciətin mətnini təqdim edir:

“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

COP29-un böyük uğurla keçirilməsi, Sizin bu tədbirdə parlaq çıxışlarınız ölkəmizin başını daha da ucaltdı. Bədxahlarımızın bütün cəhdlərinə baxmayaraq, dünya Azərbaycanı sanki kəşf etdi, yenidən tanıdı. Qədim tarixi, zəngin və əlvan mədəniyyəti olan, bu



gün qurucu bir həyatla yaşayan, dini və milli dözümlülük, tolerantlıq amallarına daima sadiq qalan, otuz il işğal altında qalmış və vandallar tərəfindən xarabaya çevrilmiş torpaqlarını öz gücü ilə azad edən, ərazi bütövlüyünü son qarışınacan əbədi bərpa edən qürurlu və məğrur bir xalqın vətəni Azərbaycan - Ulu öndərin dediyi kimi, dünyaya günəş kimi doğdu.

O da təsadüfi deyildir ki, müqəddəs dinimiz İslamın Yaşılı ilə Təbiətin rəmzi olan Yaşıl bir vəhdətdə - mənəvi və əxlaqi dəyərlər vəhdətində qovuşur.

Ayrı-ayrı insanlar içində paxıllar olduğu kimi, paxıl dövlətlər də var. Daha doğrusu, paxıl siyasətçilər tərəfindən idarə olunmağa məruz qalmış məmləkətlər. Füsunkar təbiətimizə, yeraltı sərvətlərimizə həsəd çəkənlər, hətta dənizimizə, küləklərimizə, bol-bol günəşli günlərimizə də qısqanclıqla yanaşırlar. Bizi təkləmək, boykot etmək cəhdləri də məhz bu gücsüz hiddətdən, aciz hikkədən doğur. Ölkəmizi təkləmək istəyənlərin arzuları ürəklərində qaldı. Özləri təkləndilər.

Fransız xalqı bəşəriyyətə ədəbiyyat, sənət, elm, maarif sahəsində dahi insanlar bəxş etmiş böyük millətdir. Amma bu ölkənin müstəmləkəçilik xumarından hələ də ayılmamış bədnam siyasətçiləri əzdikləri xalqların fəryadını, iqlim fəsadı ilə tamamilə yox olmaq təhlükəsinə görə çəkdikləri harayı eşitmək istəmirlər. Zəbt etdikləri xalqlara öz doğma dillərini unutdurub fransız dilini sırıyan müstəmləkəçilər bu məqsədlə hətta fransızca danışan ölkələr birliyi - frankofon təşkilatı yaradıblar. Amma indi nə XIX əsrdir, nə də XX yüzillik. XXI əsrdə bu təşkilatın yalnız iki üzvdən ibarət qalması realdır - Fransanın özündən, bir də “frankofon” Ermənistandan.

Hörmətli Prezidentim!

44 günlük zəfər savaşından və 23 saatlıq antiterror əməliyyatından sonra COP29-un Bakımızda belə möhtəşəm keçirilməsi şəxsən Sizin, xalqımızın, müstəqil dövlətimizin Üçüncü tarixi qələbəsidir.

Qələbələr qüruru və dərin minnətdarlıq hissi ilə

***Anar***



# Türk dövlətlərinin birgə inkişaf perspektivi ...

## Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədəki uğurları və təşəbbüsləri yüksək qiymətləndirilir

### Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları tərəfindən imzalanan strateji tərəfdaşlıq haqqında Saziş gələcək üçün mühüm təməllər yaradır

Azərbaycanın “yaşıl” enerjiyə keçid və iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsində atdığı addımlar ölkəmizin daxili inkişafına, beynəlxalq çağırışlara mühüm dəstək olmaqla yanaşı, həm də regionda və beynəlxalq arenada əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsinə yol açır. Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədəki uğurları və təşəbbüsləri isə həm də dost və tərəfdaş ölkələr tərəfindən yüksək qiymətləndirilir. Bu mənada, Azərbaycanın əsas tərəfdaşlarından olan Türk dövlətləri ölkəmizin bu sahə üzrə verdiyi töhfələrə xüsusi diqqət yetirir. Yeri gəlmişkən, noyabrın 13-də COP29 çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü olub. Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları “Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”i imzalayıblar. Görüşdə çıxış edən Prezident İlham Əliyev üç qardaş ölkənin öz əməkdaşlığını yeni səviyyəyə qaldırdığını bildirib. Dövlət başçısı vurğulayıb ki, sazişin imzalanması tarixi hadisədir: “Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və yaşıl enerji sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü Saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə, Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən yaşıl enerjinin inkişafı sahəsində sinxron fəaliyyət göstərir”.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə bu sazişi davamlı inkişaf üçün ümumi səylərin tarixində yeni səhifə adlandırıb: “Strateji tərəfdaşlıq Sazişinin imzalanması Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının inkişafı üzrə üçtərəfli əməkdaşlıqda mühüm mərhələdir”.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qeyd edib ki, regionumuzda ilk dəfədir ki, belə möhtəşəm tədbir keçirilir və bu, Azərbaycanın qlobal miqyasda ən yüksək nüfuzunun bariz göstəricisidir: “Bu gün biz Avropaya birlikdə yeni yaşıl enerji dəhlizi yaradırıq. Bu da tarixi hadisədir”.

## “Yaşıl” hədəflər...

Bəli, Azərbaycan, xüsusilə son illərdə iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq səviyyədə bir çox təşəbbüsləri ilə yadda qalıb. Dövlətimiz COP28-də qəbul edilən “İqlim Şəhərləri” platformasında aktiv iştirak edir və ölkənin iqtisadiyyatının karbonsuzlaşdırılması üçün mühüm addımlar atır. Azərbaycan, həmçinin “Yaşıl Enerji” keçidini dəstəkləyən mühüm layihələrə imza atır. Azərbaycanın bərpa olunan enerji, iqlim dəyişikliyi ilə mübarizə və ekoloji dayanıqlılıq sahələrində müəyyən etdiyi məqsədlər çoxşaxəlidir. Yaşıl iqtisadiyyat və ekoloji bərpa istiqamətində addımlar atılır, xüsusən də 2030-cu ilədək karbon izinin azaldılması üzrə mühüm hədəflər müəyyənləşdirilir. Yaşıl enerji istehsalının genişləndirilməsi isə xüsusilə regional əməkdaşlığa yeni rəng qatır.

## Azərbaycanın “yaşıl” gündəliyi mühüm dəstək qazanır

Qeyd edildiyi kimi, Azərbaycan, son illər ərzində qlobal ekoloji məsələlərə və iqlim dəyişikliyinə qarşı mübarizəyə fokuslanmış bir sıra mühüm təşəbbüslərlə yadda qalıb. Bu təşəbbüslərin ən mühümləri “yaşıl” iqtisadiyyatın qurulması, bərpa olunan enerji sahəsinə keçid və karbon emissiyalarının azaldılması kimi məqsədləri özündə ehtiva edir. Azərbaycanın “yaşıl” gündəliyi, həm regional, həm də beynəlxalq səviyyədə mühüm dəstək qazanır və xüsusilə Türkiyə və Mərkəzi Asiya ölkələri ilə bu sahədə səmərəli əməkdaşlıq yaradılıb. Azərbaycan enerji sektorunda ənənəvi fosil yanacaqlardan asılılığını azaltmaq və bərpa olunan enerji mənbələrinə keçid prosesində israrlıdır - bu istiqamətdə qəbul olunan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri” sənədində ekoloji təmiz enerji istehsalının artırılması, “yaşıl” iqtisadiyyatın təşviqi və ətraf mühitin qorunması üçün müvafiq tədbirlər müəyyən edilib. Dövlətin bu sahədəki prioritetləri arasında külək enerjisi, Günəş enerjisi və su elektrik stansiyalarının genişləndirilməsi yer alır.

Azərbaycanın həyata keçirdiyi bu transformasiya isə qeyd edildiyi kimi, yerli iqtisadiyyata yanaşı, həm də regional və beynəlxalq əməkdaşlığa istiqamətlənib. Xüsusilə Türkiyə və Mərkəzi Asiya ölkələrinin Azərbaycana verdiyi dəstək, bu dəyişiklikləri daha da sürətləndirir və müsbət nəticələr əldə edilməsi üçün zəmin yaradır.

## Konkret layihələr, mühüm perspektivlər ...

Türkiyənin və ümumilikdə, Mərkəzi Asiya ölkələrinin Azərbaycanın “yaşıl” iqtisadiyyat sahəsindəki təşəbbüslərinə verdiyi dəstəyə gəlincə, bu ölkələrin təcrübə mübadiləsi və texnoloji tərəfdaşlıq sahələrindəki birgə fəaliyyəti prosesə mühüm sürət qazandırır. Xüsusilə Türkiyənin və Mərkəzi Asiya ölkələrinin bərpa olunan enerji və ekoloji dayanıqlılıq mövzusunda əməkdaşlıq etdikləri konkret layihələr mövcuddur ki, bu layihələr gələcək inkişafla bağlı mühüm perspektivlər yaradır. Prezident İlham Əliyev çıxışında Azərbaycandan Qara dənizin dibi ilə Avropaya kabel xətti çəkilməsi ilə bağlı ölkəmizin artıq həyata keçirilməkdə olan planlarını qeyd edib və bildirib ki, bu layihənin texniki-iqtisadi əsaslandırılması tamamlanmaq üzrədir: “Və bununla da biz Mərkəzi Asiyanı, Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə birləşdirəcəyik. Xüsusilə sevindirici haldır ki, bu Saziş hər zaman bir-birinə yaxın olan üç qardaş ölkə arasında imzalanır. Özbəkistanla münasibətlərimiz bu il müttəfiqlik münasibətləri səviyyəsinə çatıb, müvafiq saziş imzalanıb. Qazaxıstanla artıq uzun müddətdir ki, strateji tərəfdaş kimi əməkdaşlıq edirik”.

Ölkəmizin ən yaxın tərəfdaşlarından sayılan Türk dövlətlərinin Azərbaycanın təqdim etdiyi COP29 təşəbbüsünə verdiyi dəstək isə olduqca təqdirəlayiqdir. Mərkəzi Asiya regionunun iqlim dəyişikliyi ilə mübarizədə xüsusilə həssas bölgə olaraq qarşılaşdığı çətinliklər və bu çətinliklərin aradan qaldırılması istiqamətində atılan müştərək addımlar məsələnin vacibliyi kontenkstini daha geniş şəkildə göz önünə gətirir. Bu ölkələrin birgə fəaliyyətləri isə beynəlxalq iqlim siyasətində əhəmiyyəti yer tutur - bu əməkdaşlıq həm regional, həm də qlobal miqyasda ətraf mühitin qorunması üçün xüsusi töhfələr vəd edir.

## Türkiyə və Mərkəzi Asiya ölkələri Azərbaycanın ekoloji transformasiyasını dəstəkləyir...

COP29 sammitində Türk dünyasının bərpa olunan enerji, iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin qorunması sahəsindəki fəal iştirakı, qlobal səviyyədə ekoloji problemlərin həlli üçün mühüm çağırışları xüsusi bir əhəmiyyət daşıyır. Sammitdə Azərbaycanın “yaşıl” iqtisadiyyat və bərpa olunan enerji sahəsindəki təşəbbüsləri, həm regional, həm də beynəlxalq miqyasda geniş müzakirə olunur. Türk dövlətləri Azərbaycanın ekoloji transformasiyasını dəstəkləyərək, qlobal iqlim siyasətində daha güclü mövqe tutmağa çağırışlar edirlər. Mərkəzi Asiya ölkələri iqlim dəyişikliyi ilə mübarizədə Azərbaycanla birgə çalışaraq, iqlim müzakirələrində daha çox iştirak etməyi və bu sahədə təcrübə mübadiləsi etməyi davamlı hala salacağını bəyan edir. Bu əməkdaşlıq ətraf mühitin qorunması ilə yanaşı, həm də sosial və iqtisadi inkişafın dah yüksək təmini üçün bir vasitədir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev imzalanma mərasimində bu sazişin perspektivinə diqqət çəkib və bildirib ki, bu layihənin həyata keçirilməsinin iqtisadi səmərəsini dövlətlərimizin hamısı hiss edəcək: “Minlərlə iş yeri açılacaq, enerji infrastrukturu inkişaf etdiriləcək, texnoloji və biznes əlaqələri genişlənəcək və bunun əsas nəticəsi olaraq əhalimizin həyat səviyyəsi yüksələcək. Bu layihənin icrasını sürətləndirmək üçün qarşımızda bir sıra mühüm vəzifələr durur. Bu, çox böyük və iddialı layihədir, biz bu iddialı layihənin həyata keçirilməsini sürətləndirmək üçün hər şeyi edəcəyik”.

## Əməkdaşlıq ətraf mühitin qorunması üçün güclü bir model yaradır

Azərbaycanın “yaşıl” enerji sahəsindəki irəliləyişlərinin dəstəklənməsi isə paralel olaraq qarşıdakı dövr üçün yeni təşəbbüslər mühitini yaradır. Bu çərçivədə, Azərbaycanın “yaşıl” enerji sektoruna yönəlmiş xarici investisiyaları artırması və yeni texnologiyaların tətbiqi istiqamətində müsbət addımların atılması zəruridir. Həmçinin regiondakı digər ölkələr ilə, xüsusilə Şərqi Avropa və Orta Asiya ölkələri ilə, ekoloji və enerji sahələrində daha sıx əməkdaşlıq yaradılması üçün birgə forumların təşkil edilməsi, iqlim dəyişikliyi ilə mübarizənin daha səmərəli aparılmasına imkan yarada bilər. Bu əməkdaşlıq, həmçinin Azərbaycanın regional liderliyini gücləndirərək, onun “yaşıl” iqtisadiyyat və ekoloji innovasiyaların inkişafında öncül bir ölkə kimi fəaliyyətinə xüsusi stimul qazandıracaq.

Beləliklə, yaxın tərəfdaşlarımızın ortaya qoyduğumuz yaşıl gündəmə verdiyi dəstək, COP29-da fəal iştirak Azərbaycanın ekoloji və enerji transformasiyasının müsbət nəticələrə yönəlməsində böyük rol oynayır. Bu ölkələr arasında əməkdaşlıq, regionda bərpa olunan enerji və ətraf mühitin qorunması sahəsində güclü bir model imkanları yaradır və bu istiqamətdə birgə fəaliyyətin davam etdirilməsi, daha dayanıqlı və ekoloji təmiz bir gələcəyin qurulmasını şərtləndirir...

***P.İSMAYILOV***

## Regionda “yaşıl” enerjinin inkişafı üçün əhəmiyyətli addım...

Türkiyə və Mərkəzi Asiya ölkələri, Azərbaycanın “yaşıl” enerjiyə keçidini yüksək qiymətləndirərək, bu prosesdə aktiv iştirak etməkdədirlər. Türkiyə, xüsusilə özünün bərpa olunan enerji sahəsindəki təcrübəsini Azərbaycana təqdim edərək, mühüm texnoloji dəstək göstərir. Qazaxıstan, Türkmənistan və Özbəkistan isə regionda bərpa olunan enerjinin genişlənməsində və karbon emissiyalarının azaldılmasında Azərbaycanla sıx əməkdaşlıq edir. Bu ölkələrin ekoloji cəhətdən təmiz enerji layihələri və texnologiyalarının Azərbaycanda tətbiqi, regionda “yaşıl” enerjinin inkişafı üçün əhəmiyyətli bir addım olub. Sözügedən tədbirdəki çıxışında Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev vurğulayıb ki, imzalanan Sazişin praktiki nəticələri Orta Dəhlizin iqtisadiyyatlarımızı birləşdirən “yaşıl körpü” qismində inkişafına töhfə verəcək: “Bu əsas sahədə sıx əməkdaşlıq üç dövlət arasında təcrübə və qabaqcıl texnologiyalar mübadiləsini gücləndirəcək və enerji təhlükəsizliyimizin gələcəkdə də möhkəmləndirilməsinə kömək edəcək”.

Türk dövlətlərinin Azərbaycana verdiyi dəstək, həmçinin investisiyalar və texnoloji kömək ilə daha da güclənib. Paralel olaraq Türkiyə ilə də imzalanan müvafiq razılaşmalar əsasında Azərbaycanın günəş və külək enerjisi sahəsində birgə layihələr həyata keçirilir. Həmçinin Qazaxıstan və Özbəkistan ilə bu sahədəki müştərək təşəbbüslər də yüksək potensial yaradır.

# COP29 dünya mediasının diqqət mərkəzindədir

***Nardar BAYRAMLI***

Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünya ölkələrinin mediası tərəfindən geniş işıqlandırılır. Rumıniya, Bolqarıstan, Xorvatiya və Yunanıstanın aparıcı mətbu orqanları da COP29-u diqqət mərkəzində saxlamaqda davam edir.

**Rumıniya, Bolqarıstan, Xorvatiya və Yunanıstanın KİV-ində nə yazılıb?**

Rumıniyanın AGERPRES milli xəbər agentliyi, DİGİ24 televiziyası və xəbər portalı, Bursa qəzeti, Mediafax xəbər agentliyi, Bolqarıstanın BTA milli xəbər agentliyi, “Dariknews” xəbər portalı, BTV televiziya kanalı, Dir.bg xəbər portalı, Yunanıstanın “Capital”, “Eretikos”, “İmidones”, “Sofokleous” xəbər portalı, Xorvatiyanın “Jutarni List”, “Vecerniy”, “Dnevnik” xəbər portalları və digər televiziya kanalları, radio və qəzetlər yaydığı materiallarda COP29 tədbirinin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Tədbirin özəlliyi və ölkəmiz barədə geniş məlumatlar verilib, COP29 çərçivəsində mühüm qərarların qəbul olunacağı qeyd edilib. Rumıniyanın energetika naziri Sebastian Burduja, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis, Bolqarıstanın Prezidenti Rumen Radev və Xorvatiyanın Baş naziri Andrey Plenkoviçin konfrans zamanları çıxışlarına və müsahibələrinə xüsusi yer ayrılıb və diqqətlə araşdırılıb.

Azərbaycan və Bolqarıstan prezidentlərinin iştirakı ilə “SOCAR və “Asarel Energy” arasında Birgə İnkişaf Sazişi” imzalanması barədə bildirilib. Mətbu orqanlarının çoxu Azərbaycan Prezidenti İlham Əliyevin COP29-da çıxışını geniş yayıb. Xüsusilə Prezident İlham Əliyevin Liderlər Sammitinin açılış mərasimindəki çıxışında COP29-a ev sahibliyi edən ölkəmizə ünvanlanan tənqidlərə sərt cavab verdiyi vurğulanır. Dövlətimizin başçısının təbii sərvətlərin Tanrının bəxş etdiyi hədiyyə olduğunu vurğuladığı bildirilir. Prezident İlham Əliyevin 2022-ci il enerji böhranından sonra məhz Avropa İttifaqının Azərbaycandan daha çox təbii qaz tədarük etməsini xahiş etdiyini xatırlatdığı qeyd olunur.










**ABŞ mediası: Konqresmenlər iqlim konfransını siyasiləşdirməməlidir**

“Mən erməni lobbi təşkilatı ANCA tərəfindən dəstəklənən ABŞ Konqresindəki erməni qrupunun təsisçisi və həmsədri, konqresmen Frank Pallone və senator Ed Markinin rəhbərliyi ilə 60 nəfər Konqres üzvünü Dövlət katibi Antoni Blinkendən Azərbaycanı qınamaq üçün COP29 Konfransından yararlanmağı xahiş etdiklərinə görə qınayıram”. Bu fikirləri isə tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş “COP29 siyasiləşdirilməməlidir” başlıqlı məqaləsində yazıb. Qeyd olunub ki, dünyanın iqlimlə bağlı ciddi təhlükələrlə üzləşdiyi şəraitdə beynəlxalq ictimaiyyət COP29-da diqqətini məhz bu məsələlərə yönəltməli, başqa məsələlərlə diqqətini yayındırmamalıdır. Konqresmenlər və senatorlar belə etməklə Dövlət katibini 11 sentyabr terrorundan sonra Əfqanıstana hərbi kontingent yeridən ABŞ-ın Cənubi Qafqazdakı ən etibarlı müttəfiqlərindən birini qınamağa çağırırlar.

Diqqətə çatdırılıb ki, Azərbaycanın keçmişdə Ermənistanla hərbi münaqişədə olması indiki vəziyyətə təsir etməməlidir. Vacib olan odur ki, hazırda iki ölkə arasında münaqişənin yekun həlli üçün sülh prosesi gedir. Azərbaycan öz qonşuları ilə sülh şəraitində ümumi rifah naminə yaşıl gələcək qurmağa qərarlıdır. Bildirilib ki, hazırda Azərbaycana təzyiq etmək sözügedən sülh prosesini irəlilətmir və eyni zamanda, ABŞ-ın regiondakı maraqlarına ziddir, çünki iqlim dəyişikliyi kimi kritik əhəmiyyətli məsələlərdə Azərbaycan və ABŞ arasındakı strateji əməkdaşlığa xələl gətirir.

Yazıda, həmçinin qeyd olunub ki, sözügedən davranışla ABŞ konqresmenləri beynəlxalq ictimaiyyətin iqlim dəyişikliyinin həll yollarını axtaracağı mühüm konfransı siyasiləşdirirlər. Azərbaycanın belə bir qlobal əhəmiyyətli tədbirə ev sahibliyi etməsi ona siyasi təzyiq üçün istifadə olunmamalıdır.

**Meksika mətbuatında Azərbaycan Prezidentinin çıxışına xüsusi diqqət**

Meksikanın geniş oxucu kütləsinə malik olan və ölkənin ən nüfuzlu “El Universal” qəzetində də ölkəmizin ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı məqalə dərc edilib. Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına xüsusi diqqət yetirilib, orada səslənən fikirlər maraqla qarşılanıb. Prezident İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreşin COP29-un Liderlər Sammitinin açılış mərasimində çıxışlarına istinad edilərək yaşıl enerjiyə keçid zamanı karbohidrogen ehtiyatlarına malik inkişaf etməkdə olan ölkələrin üzləşdiyi reallıq vurğulanıb.

Yazıda Prezident İlham Əliyevin sözlərinə istinadla qeyd edilib ki, neft və qaz Tanrının bəxş etdiyi təbii sərvətdir və ölkələr malik olduqları təbii sərvətlərə görə günahlandırılmamalı və onları bazara çıxardıqlarına görə suçlanmamalıdır. Məqalədə, həmçinin iqlimşünaslar və ekoloqların karbohidrogenlərin iqlim dəyişikliyinə qarşı mübarizə ilə bir araya sığmadığını israr etdiyi qeyd olunub və dövlətimizin başçısının çıxışından sitat gətirilərək, Avropa İttifaqının özünün bundan iki il əvvəl qaz ixracının ikiqat artırılmasını xahiş etdiyi bildirilib.

# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir








Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində noyabrın 16-da Çin Kommunist Partiyası (ÇKP) Nantun şəhər komitəsinin rəhbərliyi ilə görüş keçirilib.

Görüşdə dostluq və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Çin münasibətlərinin inkişafının məmnunluq doğurduğu, qarşıda duran bütün hədəflərin reallaşdırılması üçün geniş imkanların mövcud olduğu diqqətə çatdırılıb.

Bu gün hər iki ölkənin dinamik inkişafı və yüksək nüfuzu ilə dünyanın diqqət mərkəzində olduğu, beynəlxalq münasibətlər sistemində layiqli yer tutduğu və öz mövqelərini davamlı olaraq möhkəmləndirdiyi vurğulanıb. Qeyd olunub ki, dövlət başçılarının milli mənafelərə cavab verən uğurlu siyasətinin qanunauyğun nəticəsi kimi, qarşılıqlı inam və etimada, çoxillik əməkdaşlığa əsaslanaraq strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu ikitərəfli münasibətlərin inkişafına yeni dinamizm gətirməklə bərabər, Azərbaycan ilə Çinin beynəlxalq müstəvidə bir-birinin maraqlarını müdafiə etməsi baxımından da müstəsna əhəmiyyətə malikdir.

Görüş zamanı hər iki ölkənin sosial-iqtisadi inkişafı və gələcəyə yönəlik hədəfləri barədə ətraflı məlumat verilib, bir çox istiqamətlərdə yeni işbirliyi imkanları müzakirə olunub. Azərbaycan ilə Çinin regionlarının yüksək inkişaf səviyyəsinə çatdığı qeyd edilərək ölkəmizin qardaşlaşmış şəhərlər təcrübəsinə malik olması, mədəniyyət, turizm, ticarət və digər sahələrdə faydalı layihələrin həyata keçirildiyi, lakin hələ istifadə olunmamış geniş potensialın mövcud olduğu diqqətə çatdırılıb, xüsusilə də yeni texnologiyaların tətbiqi, müasir infrastruktur quruculuğu və "yaşıl inkişaf"ın təmini istiqamətlərində səmərəli əməkdaşlığın həyata keçirilə biləcəyi vurğulanıb.

Qarşılıqlı səfərlərin, fikir və təcrübə mübadiləsinin aparılmasının partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi baxımından əhəmiyyətli olduğu qeyd edilib. Diqqətə çatdırılıb ki, YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanması, bir çox məhsuldar görüşlərin keçirilməsi və Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunda iştirak yaxın dostluq əlaqələrinin daha bir bariz nümunəsidir.

YAP ilə ÇKP-nin hakim siyasi partiyalar kimi dövlət başçılarının dostluq münasibətlərini və Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığı əsas götürərək məqsədyönlü birgə fəaliyyəti uğurla davam etdirmək niyyətində və yeni uğurlara imza atmaq əzmində olduqları xüsusi vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görüşdən sonra YAP nümayəndə heyətinin şərəfinə ziyafət verilib.

Həmin gün "Çjuntyan" elm və texnologiya sərgi salonu və Nantun şəhərinin Nançuanyuan mikrorayonunun partiya üzvlərinə və sakinlərinə xidmət mərkəzi ziyarət olunub.

# Ermənistanın müharibə cinayətləri beynəlxalq müstəvidə ifşa olunur

## Azərbaycanın təşəbbüsü ilə BMT-də "İtkin düşmüş şəxslər" adlı qətnamə qəbul edilib

**Ermənistanın işğalçı siyasəti dövründə azərbaycanlıların qətlə yetirilməsi və kütləvi şəkildə basdırılmasını sübut edən faktların sayı artmaqdadır. 30 illik işğalçılıq zamanı xalqımıza qarşı saysız-hesabsız cinayətlər törədilib. Bu cinayətlər sırasında Birinci Qarabağ müharibəsi dövründə 4 minə yaxın azərbaycanlının itkin düşməsi və onlara qarşı qeyri-insani rəftar xüsusi yer tutur. Ermənistan hələ də onların taleyi haqqında heç bir məlumat vermir. Bu isə beynəlxalq cinayətdir. Ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunduqdan sonra erməni vəhşiliyi faktlarla ortaya çıxır. İşğaldan azad edilmiş ərazilərimizdə kütləvi məzarlıqların aşkar edilməsi də bunu təsdiqləyir.**

### Ərazilərimiz azad edildikdən sonra kütləvi məzarlıqlar aşkarlanıb

Xatırladaq ki, ilk olaraq Fərrux yüksəkliyində, Daşaltı kəndində, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqlar aşkar edildi. Daha sonra, Kəlbəcərin Başlıbel kəndində, Şuşa türməsinin ərazisində, Ağdam rayonunda, Kəlbəcərdə də belə məzarlıqlar üzə çıxarıldı. Eləcə də Xocalı soyqırımının qurbanlarının bir hissəsinin kütləvi basdırıldığı ərazilər aşkarlandı. Bütün bunlar erməni vandalizminin göstəriciləridir. Kütləvi məzarlıqda aşkar olunan cəsədlərdə zorakılıqlar aşkar olunub, inanlar əli qandallı basdırılıblar. Bütün bunlar ermənilərin insanlığa qarşı cinayətləridir. Müvafiq qurumlar tərəfindən DNT analizi vasitəsilə həmin cəsədlərin kimə məxsus olduğunu müəyyən edilir. Artıq onların bəziləri müəyyən edilərək doğmalarına təhvil verilərək dəfn olunublar.

Azərbaycan dövləti Ermənistanın bütün cinayətlərini, o cümlədən itkin düşmüş vətəndaşlarımızla bağlı məlumatları dünya ictimaiyyətinə çatdırır. Yeri gəlmişkən, noyabrın 15-də BMT Baş Assambleyasının 3-cü Komitəsində Azərbaycan tərəfindən irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə konsensusla qəbul edilib. Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyi tərəfindən irəli sürülmüş qətnamə layihəsi üzrə bir ay ərzində üzv dövlətlərlə aparılmış intensiv danışıqlar nəticəsində layihənin mətni razılaşdırılıb.



### 56 ölkə həmmüəllif qismində qoşulub

Qətnaməyə 56 ölkə həmmüəllif qismində qoşulub. Qətnamə mətninin Komitədə təqdimatı zamanı Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin birinci katibi Nərmin Ahəngari çıxışında "İtkin düşmüş şəxslər" adlı qətnamənin ilk dəfə 2002-ci ildə BMT Baş Assambleyasının 57-ci sessiyasında Azərbaycanın təşəbbüsü ilə qəbul edildiyini və qətnamənin hər iki ildən bir irəli sürüldüyünü xatırladıb. N.Ahəngari qətnamənin əsas məqsədinin silahlı münaqişələrin humanitar faciələrindən biri olan itkin düşmə hallarının qabaqlanması və itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqları öhdəliklərinə hörmət və riayətin vacibliyinə diqqətin cəlb edilməsi olduğunu vurğulayıb.

Diplomat mətndə əks olunmuş yeni bəndlər barədə üzv dövlətlərin nümayəndələrinə ətraflı məlumat verib. Ahəngari qeyd edib ki, bu ilki qətnamənin mətnində minaların mövcudluğunun itkin düşmüş şəxslərin qalıqlarının aşkarlanması üzrə əməliyyatlara yaratdığı maneələr də öz əksini tapıb. O qeyd edib ki, mətndə əlaqədar dövlətlərin insan qalıqlarının təhlükəsiz axtarışı üçün əməkdaşlıq etmək çağırışları öz əksini tapıb. Qətnamədə, eyni zamanda, BMT Baş katibindən Baş Assambleyanın 81-ci sessiyasına (2026-cı il) və BMT-nin İnsan Hüquqları Şurasının müvafiq sessiyasına onun icrasına dair müfəssəl hesabat təqdim edilməsi xahiş olunub.

### İtkin düşmüş şəxslərlə bağlı Ermənistana beynəlxalq təzyiq göstərilməlidir

Ümumiyyətlə, Birinci Qarabağ müharibəsində 3890 vətəndaşımız Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb və aşkar olunmuş kütləvi məzarlıqlarda onların bəzilərinin qalıqları eyniləşdirilib. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə bu istiqamətdə davamlı olaraq işlər aparılır.

İnsanlığa qarşı törədilən bu cinayətlər cəzasız qalmamalıdır və qalmır. 44 günlük Vətən müharibəsində xalqımıza qarşı cinayətlər törətmiş ermənilərin bir qismi öz cəzalarını aldılar. Eləcə də 2023-cü ilin sentyabr ayında Qarabağda keçirilmiş antiterror tədbirləri zamanı separatçılar diz çökdürüldü, onların başçıları həbs olunaraq Bakıya gətirildilər. Bu canilər törətdikləri cinayətlərə görə cavab verəcəklər. Lakin minlərlə azərbaycanlının taleyi haqqında hələ də məlumat yoxdur. Ermənistan tərəfi bu məlumatları verməlidir. Ermənistana öz öhdəliklərini yerinə yetirmək üçün beynəlxalq səviyyədə təzyiq göstərilməlidir. Çünki itkin düşmüş azərbaycanlıların taleyi haqqında məlumat vermək rəsmi İrəvanın üzərinə götürdüyü öhdəliklər sırasındadır. Bununla belə, itkin düşmüş həmvətənlərimizin taleyi ilə bağlı dövlətimiz bütün imkanlardan istifadə edir. Bu baxımdan, BMT-də Azərbaycan tərəfindən irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamənin qəbul olunması böyük əhəmiyyət kəsb edir.

***Nardar BAYRAMLI***

# Hücum kampaniyaları təşkil edənlərə layiqli cavab...

## 196 ölkədən 72 min iştirakçı - 80 prezident, vitse-prezident və baş nazir...

Azərbaycanın son 4 ildə yerləşdiyi regionda yaratdığı yeni siyasi reallıqlar, iqtisadi transformasiya və əməkdaşlıq platforması ölkəmizin birləşdirici funksiyasını bir daha təsdiqləyir. Cənubi Qafqaza daimi sülh bəxş etməklə bölgə üçün yeni inkişaf perspektivi yaratmağa çalışan Azərbaycan həm də böyük bir coğrafiya üçün yeni ticari imkanlar formalaşdırır. Bu isə özündə mədəni, siyasi-iqtisadi, ticari və mənəvi inteqrasiyanı əks etdirir. Azərbaycan müasir çağırışlara uyğun olaraq mühüm geostrateji məkanda yeni dünya düzəninin iqtisadi şəkilləndirməsini hazırlayır.

Təbii ki, bu addımlar bütövlükdə, ölkəmizin müsbət qlobal təşəbbüskarlıq nümunələrindən biri kimi tarixə yazılır. Bundan öncə Azərbaycanın müəllifi olduğu bir çox təkliflər beynəlxalq miqyasda bəyənilib, dəyərləndirilib və özünü təsdiqləyib. COP29-un Liderlər Sammitinin açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik: “Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib”.

Günlərdir ki, davam edən COP29 həm də Azərbaycanın “yaşıl” gündəliyinin təsdiqidir. 2020-ci il Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə müasir çağırışlara uyğun olaraq bərpa olunan enerji mənbələrindən aktiv istifadə yolunu seçən, dünyanın “yaşıl” çağırışlarına cavab verən və bu çağırışları dəstəkləyən Azərbaycan yeni inkişaf mərhələsi yaradır. Təbii ki, bu hal dotslarımızı sevindirdiyi qədər anti-Azərbaycan kampaniyaları ilə ölkəmizin yürütdüyü müstəqil siyasi xəttə mane olmağa çalışan mərkəzlərin maraqları ilə uzlaşmır - bunun nəticəsidir ki, ötən ilin sonundan etibarən, yəni COP29-a ev sahibliyi iddiamız ortaya qoyulandan və bu təklif dəstəklənən dövrdən etibarən ölkəmizə qarşı hücumlar daha da intensivləşib.

Sirr deyil ki, COP29 tədbirinə ev sahibliyi etmək üçün Azərbaycanın seçilməsi və yekdilliklə dəstəklənməsi xarici dairələr tərəfindən müxtəlif media kampaniyalarına start verilməsi və təzyiqlərin artması ilə müşayiət olundu. Məsələn, beynəlxalq mediada yayımlanan bəzi məqalələrdə Azərbaycanın ətraf mühit sahəsindəki səylərinin guya qeyri-kafi olması iddia edilirdi - halbuki, Azərabaycan nəinki Cənubi Qafqaz-Mərkəzi Asiya - Kiçik Asiya coğrafiyası üçün yeni “yaşıl” enerji strategiyası hazırlayır, o cümlədən Qara dənizin dibi ilə Mərkəzi Avropaya inteqrasiya edəcək “yaşıl” layihələrə də müəlliflik edir. Bu isə həmin anti-Azərbaycan mərkəzlərin növbəti özünütəkzibinə çevrilir. Liderlər Sammitinin açılış mərasimində Azərbaycanın “yaşıl” gündəliyindən bəhs açan Prezident İlham Əliyev bildirib ki, biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq: “Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır”.

Qeyd edildiyi kimi, fərqli rakurslardan fərqli bəhanələrlə Azərbaycanın COP29-a ev sahibliyi etməsinə mane olmağa çalışanların bir məqsədi vardı - özünün antimilli niyyətini yerinə yetirmək. Bu əsasız iddiaları, şər-böhtan kampaniyalarını özünəməxsus “don”da təqdim etmək istəyənlər nələrə əl atmadılar - siyasi rıçaqlardan istifadə etməklə, iqtisadi platformalardakı naliyyətlərimizə qarşı cəbhə açmaqla, ölkə daxilindəki bəzi “yedək”lərini “prosesə” qoşmaqla min bir yola baş vuruldu. Nəticə etibarı ilə, uğur yenə Azərbaycanın tərəfindədir - tədbirə qlobal diqqət, kütləvi iştirak, dövlət xadimlərinin, ölkə başçılarının və hökumət rəhbərlərinin iştirakı COP29-a verilən müsbət dəyərin bariz sübutuna çevrildi.




### Böhtan kampaniyasına qarşı arqumentli cavab: Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsi...

Ən təzadlı məqam isə xüsusilə Azərbaycana qarşı hər zaman qərəzi ilə seçilən Avropa Komissiyasının iddiaları və onun “ətrafının” apardığı “antitəbliğat” kampaniyasıdır - bəzi dairələr Azərbaycanın ənənəvi enerji sektorunda təmsil olunmasını “əsas gətirərək” ölkəmizin yürütdüyü “yaşıl” gündəliyi gözdən salmağa çalışır. Halbuki, Azərbaycanın dünya üzrə neft hasilatındakı payı 0,7 faizdir - qlobal qaz hasilatındakı payı isə cəmi 0,9 faizdir. Bu isə Azərbaycanı dünya üzrə nəhəng enerji hasilatçıları sırasına daxil etmir. Ölkənin karbon qazı emissiyalarındakı payı isə cəmi 0,1 faizdir. Müqayisə üçün, bildirək ki, ABŞ-ın və Avropa İttifaqı ölkələrinin illik karbon emissiyası milyardlarla tona yaxındır. Əlavə olaraq, 2023-cü il üzrə statistikaya görə, Avropa İttifaqında emissiyaların azaldılması hədəfinə baxmayaraq, bəzi üzv ölkələrdə kömürdən istifadənin artması müşahidə edilib. Avropa İttifaqında bəzi ölkələrin karbon qazı emissiyalarının Azərbaycanla müqayisədə yüz dəfə yüksək olması - bunun qarşılığında Azərbaycanın “ittiham edilməsi” bariz ikili standartların göstəricisidir. Beləliklə, Azərbaycana qarşı aparılmasına çalışılan bu kampaniya elə birinci mərhələdəcə sıradan çıxdı.

### İkili standart: Avropa Komissiyası nəyi niyə qarışdırır?

Azərbaycana qarşı tutarlı bir “ittiham” tapa bilməyən dairələr təzadlı və absurd bir iddiaya əl atmaq məcburiyyətində qaldı - COP tədbirlərinin əsas mahiyyətini gizlətmək, dünyanın “yaşıl” çağırışlarını ikinci alana keçirmək üçün bu dairələr Azərbaycanı sahib olduğu təbii sərvətlərinə görə hədəfə almağa çalışırdı. Bu isə açıq qərəzin nümayişidir.

Azərbaycanın təsdiq edilmiş bəlli karbohidrogen ehtiyatları var. Bu ehtiyatlar ölkəni Cənubi Qafqazda enerji mərkəzinə çevirir. Azərbaycanın müstəqil siyasəti və sərvətlərindən səmərəli istifadə etməsi, Avropanın enerji təminatında alternativ rol alması, bu təminatda yer tutması bəzi dairələrdə narahatlıq yaradır. Eyni zamanda, Azərbaycan bu resursları ekoloji qaydalara uyğun şəkildə istismar edir, ölkə daxilində ətraf mühitin qorunması üçün layihələr həyata keçirir.

### Avropa İttifaqı bizdən yardım xahiş etdi...

Vurğulanmalıdır ki, Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış enerji tərəfdaşlıq bəyannaməsi, Avropa Komissiyasının təşəbbüsü ilə həyata keçirilib. Bu sənədlə, Azərbaycan 2027-ci ilə qədər Avropaya qaz təchizatını 20 milyard kub metrə qədər artırmağı nəzərdə tutur. 2022-ci ildə Azərbaycanın Avropaya qaz ixracı təxminən 11 milyard kub metr təşkil edirdi və bu rəqəm 2023-cü ildə 12 milyard kub metrə çatıb. Prezident İlham Əliyev çıxışında bildirib ki, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi: “Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır. Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib”.




Göründüyü kimi, bəzi Avropa ölkələri Azərbaycan qazına olan asılılıqlarını artırmaqla yanaşı, ölkəyə qarşı müxtəlif ittihamlar da irəli sürürlər. Bu, xüsusilə müəyyən siyasi dairələrin ikili standartlarından xəbər verir. Avropanın enerji asılılığına baxmayaraq, bəzi Qərb KİV-lərində Azərbaycanın ekoloji məsələlərdə müsbət imicinə kölgə salmağa çalışan məqalələr yayımlanır ki, bu da ikili standartların və qərəzli yanaşmaların nümunəsidir.

### Azərbaycana xoş gəlmisiniz!

COP29-da nümayiş olunan milli pavilyonlar, müxtəlif ölkələrin ekoloji layihələrini və innovativ həll yollarını əks etdirir. Bu pavilyonlar ölkələrin ekoloji öhdəliklərini və səylərini beynəlxalq auditoriyaya çatdırmağa kömək edir. Azərbaycanın pavilyonunda isə ölkənin ətraf mühitin qorunması, “yaşıl” enerji və ekoloji təmiz texnologiyaların tətbiqi sahəsində gördüyü işlər nümayiş etdirilir. Bu mənada “Yaşıl Enerji Zonası” layihəsi xüsusi maraq doğurur - Qarabağ və Şərqi Zəngəzur regionunda həyata keçirilən bu layihə çərçivəsində 2030-cu ilə qədər həmin ərazilərin enerji tələbatının tamamilə bərpa olunan enerji mənbələrindən ödənilməsi planlaşdırılır. Azərbaycanın bu sahədə beynəlxalq tərəfdaşlarla əməkdaşlığı, ölkənin ekoloji layihələrinin daha geniş miqyasda inkişaf etdirilməsinə şərait yaradır.

Nəticə etibarı ilə, COP29 tədbirində 196 ölkədən təxminən 72 min iştirakçı qeydiyyatdan keçdi, o cümlədən 80 prezident, vitse-prezident və baş nazir də daxil olmaqla dünya liderləri də iştirak edir. Bunların sırasında Avropa İttifaqı Şurasının prezidenti, İtaliya, Britaniya, Yunanıstan, Belçika və İspaniya kimi ölkələrin rəhbərləri də var. Bu cür yüksək səviyyəli iştirakı təmin etmək, Azərbaycanın beynəlxalq səviyyədə qəbul edilən etibarlı və əhəmiyyətli bir ölkə kimi qəbul edildiyini təsdiqləyir. Daha konkret olaraq, tədbirin Bakıda keçirilməsi Azərbaycanın qlobal ekoloji gündəmin formalaşdırılmasında fəal rol aldığını və bu sahədə beynəlxalq ictimaiyyətin inamını qazandığını göstərir. COP29 tədbiri, həmçinin ölkəyə müxtəlif sahələrdə beynəlxalq investisiyaları cəlb etmək və beynəlxalq ictimaiyyətdə müsbət imic yaratmaq baxımından da əhəmiyyətli töhfələr verir.

Bu arqumentlər Azərbaycanı qərəzli tənqidlərdən müdafiə etməklə yanaşı, ölkənin beynəlxalq səviyyədə ekoloji öhdəliklərə və əməkdaşlığa nə dərəcədə sadiq olduğunu göstərir. Rəqəmlər və faktlar Azərbaycanın enerji istehsalında və qlobal emissiyalardakı payınun aşağı səviyyədə olduğunu və Azərbaycanın ətraf mühitin qorunmasına yönəlmiş addımlarının beynəlxalq səviyyədə tanındığını oratya qoyur. COP29-a dəstək isə qlobal dəstəyin nümayişi kimi tarixə yazılır. Prezident İlham Əliyev bildirib ki, “Dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!”

*Pərviz SADAYOĞLU*

---

# COP29-a...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

Ölkəmizin ev sahibliyi etdiyi COP29 ərəfəsində təbliğatın aparılması istiqamətində xaricdəki Azərbaycan diasporunun üzərinə mühüm vəzifə düşdüyü danılmazdır. Məlumdur ki, bəzi hallarda xaricdəki müəyyən qüvvələr, təşkilatlar Azərbaycanın qlobal iqlim dəyişmələrinə qarşı mübarizə tədbirlərinə verəcəyi töhfələrə qara yaxmağa çalışırlar. Bu mənada, ölkəmizin məqsəd və məramlarının, COP29 ərəfəsində gördüyü işlərin, göstərdiyi fəaliyyətlərin dünyaya çatdırılması işində diasporumuz aktivlik göstərməlidir.

Nəzərə alsaq ki, bu tədbirə dünya ölkələrinin rəhbərləri, siyasətçilər, ictimai xadimlər, elm adamları, mütəxəssislər qatılırlar. Bu baxımdan diaspor alimlərimizin də bu prosesdə yaxından iştirak etməsi vacibdir. COP29 zamanı dünyada təbliğatın gücləndirilməsində diaspor təşkilatları, diaspor alimləri mühüm rol oynamalıdır. Bu həm də milli həmrəylik göstəricisi sayılır. Xaricdə yaşayan, fəaliyyət göstərən çox nüfuzlu azərbaycanlı alimlər var. Onlar beynəlxalq səviyyədə tanınırlar, böyük nüfuza malikdirlər. Ekologiya, ətraf mühitin qorunması, müdafiəsi təbii ki, qlobal mövzudur. Amma Azərbaycanın ev sahibliyi etdiyi bu tədbirdə təbii ki, elm adamları, tədqiqatçılar və diaspor alimlərin prosesdə iştirakı mühüm amildir.

**Azərbaycan diasporu xüsusi rol oynamalıdır**

Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov “Yeni Azərbaycan”a açıqlamasında bildirdi ki, COP29 prosesinin təbliğində, təşviqində Azərbaycan diasporu xüsusi rol oynamalıdır. O, qeyd edib ki, bu, həm də milli həmrəylik göstəricisi olardı: “COP29 qlobal iqlim dəyişikləri ilə bağlı dünyada həm əhatə dairəsinə, həm iştirakçı sayına görə böyük miqyaslı tədbirdir. Eyni zamanda, bu, iqlim dəyişikliyinə qarşı mübarizə aparan bütün maraqlı tərəflərin, siyasi xadimlərin, dövlət başçılarının, alimlərin, vətəndaş cəmiyyəti institutlarının, jurnalistlərin, ekologiya üzrə mütəxəssislərin ekologiyanın qorunmasına töhfə verəcəyi qlobal bir tədbirdir. COP29-un əhatə dairəsi ilə bərabər həm də bu tədbirin əhatə etdiyi insan resursları kifayət qədər geniş və çox vektorludur. Mən çoxvektorlu sözünü təsadüfən işlətmədim. Çünki bu tədbir fərqli sahələrdən olan və eyni zamanda, iqlim dəyişikliklərinə müsbət mənada təsir göstərə bilən, töhfə verəcək maraqlı tərəfləri birləşdirir. Nəzərə alsaq ki, ekologiyanın, biomüxtəlifliyin qorunması, iqlim dəyişiklikəri mübarizə birbaşa həm də elmi yanaşma və elmi düşüncə tələb edir. Bu, həm də birbaşa tədqiqatçıların fəaliyyət sahəsinə daxildir. Bu baxımdan, əlbəttə, bu mötəbər tədbirdə elm adamlarının, alimlərin, tədqiqatçıların iştirakı bir mənalı olaraq təmin edilməlidir. Digər tərəfdən bu tədbirlə bağlı dünyanın fərqli ölkələrində yaşayan azərbaycanlı alim və tədqiqatçıların da fəaliyyətinə yer verilməli və onların da burada yer alması çox vacibdir”.

### Xaricdə yaşayan alimlərimiz hansı töhfəni verə bilər?




İ.Orucov qeyd edib ki, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti diaspor alimlərinin təşkilatlanması və fərqli qlobal həllər naminə səfərlər edilməsi təşəbbüsünü irəli sürüb: “Təbii ki, bu istiqamətdə Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti ortadadır. Komitə dünyanın fərqli ölkələrində yaşayan alimləri həm milli, həm də qlobal mövzularda səfərbər edir, onları birləşdirir, bunlar müsbət hallardır”.

Cəmiyyət sədirinin sözlərinə görə, bütövlükdə diaspor alimlərinin COP29-a müsbət töhfələri ola bilər: “Ona görə də COP29 proseslərinə, keçiriləcək tədbirlərə dəstək vermələri baxımından diaspor alimlərinin bu işə cəlb edilməsi vacibdir. Bildiyim qədər bununla əlaqədar Dövlət Komitəsinin tədbirlər planı var, onların reallaşdıracağı tədbirlər var. Çox istərdim ki, diaspor alimlərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürən təşkilat olan bu sırada bizim təşkilatımız da yer alsın. Nəzərə alsaq ki, dünya alimlərinin ən böyük tədbirlərinin təşkilatçılığını məhz bizim təşkilat edib. Hesab edirəm ki, bu işlərə də töhfə verə biləcəyik”.

İ.Orucov hesab edir ki, xaricdə yaşayan alimlərimiz, ekoloqlar, bioloqlar, riyaziyyatla, biomüxtəlifliklə, təbiət elmləri və fundamnetal elmlərlə məşğul olan alimlər mütləq şəkildə bu tədbirdə yer almalıdırlar: “Onlar həm ölkəmiz, həm də bütün bəşəriyyət üçün çox böyük aktuallıq kəsb edən məsələlərin, insan yaşayışının, sağlamlığının, kainatın gələcək taleyinin müzakirə olunacağı bu platformada öz fikir və ideyaları ilə böyük töhfələr verə bilərlər”.

# Nəhəng Anlaşma

## BƏƏ və Səudiyyə Ərəbistanı ilə imzalanmış memorandum “yaşıl enerji” sahəsinə yeni investisiyaları nəzərdə tutur

COP29 çərçivəsində Dövlət Neft Şirkəti (SOCAR), Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Masdar” və Səudiyyə Ərəbistanın “ACWA Power” şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda 3,5 giqavatlıq (GVt) külək elektrik enerjisi istehsalı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Nəzərdə tutulan layihə çərçivəsində Azərbaycanda dənizdə ilk külək stansiyaları inşa olacaq. Bu sənəd tərəflər arasında ötən il Naxçıvanda ümumi gücü 500 MVt olan bərpaolunan enerji mənbələri layihələrinin həyata keçirilməsi ilə bağlı tərəfdaşlığın genişləndirilməsinə xidmət edir.

Beləliklə, 3 dost ölkənin birgə enerji alyansı yaranmış olacaq. Hər iki körfəz ölkəsi Azərbaycanın yaxın tərəfdaşı kimi COP29-da yeni birliyin də əsasını qoymuş oldu.

### “ACWA Power”in 5 milyard dollar həcmində sərmayə planı

Azərbaycan həm Birləşmiş Ərəb Əmirliyi, həm də Səudiyyə Ərəbistanı ilə sıx dostluq münasibətləri quraraq son illərdə bu təmasları daha da inkişaf etdirməkdədir. Ölkələrimiz arasında münasibətlər güclü siyasi zəmin əsasında inkişaf etməkdədir və dərin qarşılıqlı inam və etimadın, iradənin olması əlaqələri bütün sahələrdə irəliyə aparmaqdadır. Hər iki ölkənin dövlət başçılarının, hökumət üzvlərinin, iqtisadi qurumları və biznes nümayəndələrinin birgə səfərlərinin Azərbaycana intensiv xarakter alması və aparılan faydalı müzakirələr ticarət, iqtisadiyyat, enerji, ətraf-mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni qapılar açmaqdadır.

Səudiyyə Ərəbistanının 2 şirkəti “Əsrin müqaviləsi”ndə və Bakı-Ceyhan layihəsində iştirakçıdır. Bundan başqa, Səudiyyə Ərəbistanının “Al-Gahtani Pipe Coatinq Terminal”, “Middle East Fiber Cables Manufacturing” və “Middle East Sibecializet Cables CO (MESC)” şirkətləri enerji sektorlarında təmsil olunur. Ancaq son 7-8 ildə Səudiyyə şirkətlərinin sənaye, nəqliyyat, rabitə, İKT, infrastruktur, turizm, rəqəmsal innovasiyalar, əmək, məşğulluq və digər sahələrdə təmsil olunması iqtisadi panoramı zənginləşdirib.

2022-ci ildə Azərbaycanın İqtisadiyyat Nazirliyi və Səudiyyə İnkişaf Fondu arasında imzalanmış Anlaşma Memorandumu prioritet sahələr üzrə layihələrin maliyyələşdirilməsi üzrə dərin zəmin yaradıb, ərəb sərmayəçilərin sənaye və aqrar sahələrdə bir sıra layihələrə maliyyə ayrılmasını təmin edib. Alternativ enerji strategiyası üzrə yeni palanlara əsasən, ölkələrimiz arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq imkanları daha da böyüyüb, Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti ilə Azərbaycanda 240 MVT-lıq külək enerjisi parkının qurulması ilə bağlı imzalanmış müqavilə yaşıl hidrogen sahəsində dərin əməkdaşlığın əsasını qoyub. Ötən il şirkət 246 milyon dollarlıq maliyyə sazişini təsdiq edib və qarşıdakı dövrdə daha irihəcmli sərmayə layihələrinin gerçəkləşməsi nəzərdə tutulur. “Acwa Power” şirkətinin regional direktoru Abid Malik bildirib ki, investisiya əsasən Azərbaycanın bərpaolunan enerji sahəsinə 5 milyard dollara yaxın sərmayə yatırılacaq.

### “Masdar”ın sərmayə liderliyi...

Körfəz ölkələrindən Birləşmiş Ərəb Əmirlikləri ilə də Azərbaycan arasında hidrogen və bərpaolunan enerji sektorlarında səmərəli əməkdaşlıq qurulub. İlk sərmayə planı əsasında “Masdar” şirkəti 230 MVt gücündə Qaradağ günəş stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb. Həmçinin “Masdar”la 4 ay əvvəl imzalanmış yeni sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması BƏƏ-nin Azərbaycanda bərpa olunan enerji sektorunda başlatdığı böyük sərmayə bumunun nümunəsi hesab edilə bilər.

Bundan başqa, “Masdar”la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpa olunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb.



### Qarabağ və Şərqi-Zəngəzura “yaşıl investisiyalar”..

Azərbaycanın “yaşıl enerji” strategiyasında əsas potensial güc mənbəyi kimi azad edilmiş ərazilərin resursları xüsusi yer tutur. Ortamüddətli inkişaf konsepsiyasında bu ərazilər Yaşıl Enerji Zonası elan edilib və müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modelləri hazırlanıb. Həmin strateji yanaşmaya əsasən, Yaşıl Enerji Zonasında enerji istehsalı üçün bir neçə mənbə müəyyən edilib.

“ACWA Power” və “Masdar” bu ərazilərdəki “yaşıl enerji”yə böyük maraq göstərir və yaxın vaxtlarda azad edilmiş ərazilərin bərpaolunan enerji mənbələrinin istismarına dair hər iki ölkə ilə sazişlərin imzalanması ehtimal edilir. 2022-ci ilin dekabrında Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falihin rəhbərlik etdiyi böyük bir nümayəndə heyəti ölkəmizdə səfəri çərçivəsində azad edilmiş ərazilərə baş çəkərək bölgənin resursları və investisiya imkanları ilə yaxından tanış olub. Həmin səfər zamanı Səudiyyə Ərəbistanından olan özəl şirkətlərin Qarabağın bərpa prosesində iştirakının nəzərdən keçirildiyi vurğulanıb, Səudiyyə İnkişaf Fondu və Səudiyyə İnvestisiya Fondu tərəfindən maliyyə vəsaiti ayrılacağı bildirilib.

Bir neçə ay əvvəl bir missiya ilə ölkəmizdə olan BƏƏ sərmayəçiləri də Azərbaycanda formalaşmış əlverişli biznes mühiti və xarici investorlar üçün yaradılmış cəlbedici imkanlarla tanış olduqdan sonra investisiya planlarını hazırlayacaqlarını bəyan edib.

**ELBRUS**

# Üç marşrut, bir dəhliz

## “Yaşıl Enerji Platforması” 10-a yaxın ölkəni vahid blokda birləşdirəcək

Bakıda keçirilən COP29 sammiti çərçivəsində bərpaolunan enerjinin istehsalı və nəqli ilə bağlı çoxtərəfli görüşlərin keçirilməsi, Azərbaycanın mərkəzi coğrafi nöqtə olmaqla, region ölkələrinin “yaşıl enerji” potensiallarının vahid dəhlizlərdə birləşdirilməsi əsas aparıcı mövzu kimi diqqəti cəlb etməkdədir. Ötən 2 gündə Azərbaycan hökuməti ilə Türkiyə, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Rumıniya, Macarıstan, Bolqarıstan və Avropa İttifaqının nümayəndələri arasında aparılan danışıqların məzmunu birgə “Yaşıl Enerji Platforması”nın qurulması ilə bağlı olub.

“Yaşıl Platforma” böyük coğrafiyaları və 10-a yaxın ölkəni əhatə etməklə bərpaolunan enerji mənbələrinin istehsalı, tədarükü və ixracını təmin edən marşrutların vahid bir dəhlizdə birləşdirilməsini nəzərdə tutur.

Platformanın əsas komponentlərindən biri Azərbaycan, Qazaxıstan və Özbəkistanın bərpaolunan enerji güclərinin bir nəql xəttində birləşdirilməsini nəzərdə tutan “Mərkəzi Asiya-Xəzər” enerji dəhlizidir. Bununla bağlı 3 qardaş ölkə yekun sazişi imzalamaqla hüquqi bünövrəni qoyub.

### Naxçıvandan Türkiyəyə “yaşıl dəhliz”

“Yaşıl Platforma”nın ikinci komponenti Azərbaycan və Türkiyə arasında “yaşıl enerji”nin ötürülməsini nəzərdə tutan marşrutdur ki, bununla bağlı Bakı və Ankara 2 il əvvəl niyyət razılaşması əldə edib. Bu sxemə əsasən, ilk infrastrukturlar yaradılıb və hazırda Türkiyə və Azərbaycan enerji infrastrukturlarının inteqrasiyasını başa çatdırmaq və enerji ixracını əsasən Naxçıvandakı “yaşıl” potensiallar hesabına nəqli üzərində işləyir. Layihə çərçivəsində Naxçıvanda gigavat gücündə bərpa olunan enerjiyə əsaslanan istehsal müəssisəsinin açılması və Türkiyənin enerji sisteminə qoşulması nəzərdə tutulub.

“Yaşıl Platforma”nın sonuncu və coğrafi baxımdan ən böyük komponenti Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstan və Bolqarıstanın birgə koalisiyası olan “yaşıl enerji” xətti və ya “Qara dəniz kabeli” adlanan “Xəzər-Qara dəniz-Avropa” dəhlizidir. Bu layihənin əsası 2021-ci ilin dekabrında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətlərinin birgə razılığı əsasında qoyulub. Bir il sonra, dörd ölkənin liderləri tərəfindən 2022-ci il dekabrın 17-də Buxarest şəhərində “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in imzalanması ilə hüquqi təməl yaradılıb.




Sözügedən layihə Azərbaycanın “yaşıl enerji”nin təchizatçısına çevrilmək planlarının tərkib hissədir. Dəhlizlə 4 QVt həcmində “yaşıl enerji”nin ixracı məqsədilə dənizdə sektorlar müəyyənləşdirilib, quruda ərazilər ayrılıb və növbəti proseslərə start verilib. Uzunluğu 1195 kilometr kabel layihəsinin texniki-iqtisadi əsaslandırması da başa çatdırılıb və həmin maliyyələşdirməni Dünya Bankı təmin edib.

### “Qara dəniz kabeli”nin maliyyə fondu yaradılır

Hazırda ən həlledici mərhələyə daxil olan “Yaşıl Platforma”nın bu əsas hissəsinin maliyyə fondunun yaradılması üçün tərəflər və xarici maliyyə institutları arasında danışıqlar aparılır. Layihəyə xüsusi önəm verən Avropa Komissiyası da Avropa üçün olduqca vacib hesab edilən dəhlizin maliyyə donorlarının təsis edilməsində iştirakçıdır. COP29 sammitində aparılan müzakirələr zamanı tərəfdaş ölkələrlə Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər maliyyə qurumları, eləcə də Avropa Komissiyasının üzvləri ilə aparılan danışıqlarda layihənin bütün təfərrüatları üzrə işlərin sürətləndirilməsinə toxunulub ki, bu da yaxın vaxtlarda həm xarici, həm də yerli investisiyalar fondunun formalaşdırılacağından xəbər verir. Maliyyə fondu formalaşdıqdan sonra kabelin çəkilişi işləri dörd il ərzində yekunlaşacaq.

Energetika naziri Pərviz Şahbazov COP29 çərçivəsində keçirilən Enerji keçidi üzrə İnvestisiya Forumunda çıxışı zamanı bildirib ki, “Yaşıl Platforma” növbəti mərhələdə daha qlobal enerji blokuna çevriləcək. Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında imzalanmış sazişə əsasən, “Mərkəzi Asiya-Xəzər yaşıl Enerji Dəhlizi” formalaşacaq və bu layihə “Qara dəniz kabeli”nə inteqrasiya olunmaqla, Avropaya “yaşıl enerji” mübadiləsini genişləndirəcək. Eyni zamanda, “Azərbaycan-Türkiyə-Avropa” enerji dəhlizi də bu platformaya qoşulacaq.

Beləliklə, Azərbaycanın strateji yer aldığı 3 dəhlizinin inteqrasiyası sayəsində vahid “Yaşıl Enerji Platforması” arxitekturası formalaşacaq. Bu vizyon Azərbaycan və Mərkəzi Asiyadan böyük həcmlərdə “yaşıl enerji” və “yaşıl hidrogen”in Türkiyə və Avropa bazarlarına nəqlini təmin etməklə, Asiyadan Avropayadək böyük bir coğrafiyada bərpaolunan enerji istehsal və idxal mərkəzlərini birləşdirəcək, Azərbaycanın geoiqtisadi məkan kimi mövqeyini gücləndirəcək.

### Azərbaycanın bərpaolunan gücü...

Azərbaycanın nəzərdə tutulan “yaşıl enerji”ni nəql etməsi üçün potensialları ümidvericidir. Hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalında iri su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin payı 17-18 faiz təşkil edir. Bu da 1278 MVt elektrik enerjisi deməkdir. Qiymətləndirmələrə görə, ölkəmizin bərpaolunan enerji mənbələri üzrə texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, Günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Bütün bu ehtiyatlar təsdiqləyir ki, ölkəmizin “yaşıl enerji” dəhlizində əsas tədarükçülərdən biri olmaq üçün böyük imkanları mövcudur.

Azərbaycan “yaşıl enerji” ilə bağlı potensialının hərəkətə gətirilməsi istiqamətində çoxşaxəli əməkdaşlıq koalisiyası qurub, bir neçə nüfuzlu xarici və beynəlxalq şirkətlə müqavilə və anlaşma memorandumları imzalayıb. Həmin sazişlərin bir neçəsi icra olunur və 2025-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan Günəş və külək enerjis stansiyalarından ən azı 1-2 QVt həcmində giqavat gücündə enerji istehsalı gözlənilir. Yaxın 4 ildə Azərbaycan bu gücü ən azı 2 dəfə artırmağı hədəfləyir və bu istiqamətdə xarici investorlarla birgə əsası qoyulmuş bərpaolunan enerji üzrə layihələr əsaslı rol oynayacaq.

Beləliklə, hər 3 dəhlizin vahid platformaya çevrilməsindən sonra ekoloji cəhətdən təmiz elektrik enerjisi çoxşaxəli nəql xətləri ilə Avropaya çatdırılacaq. Azərbaycan Xəzərdəki külək və Günəş enerjisini Qara dəniz, Naxçıvandakı gücləri isə Türkiyə vasitəsilə Avropaya nəql edəcək. Respublikamız, ötürücü ölkə kimi Mərkəzi Asiyanın “yaşıl enerjisi”ni isə Xəzər-Qara dəniz marşrutuna qoşmaqla, tranzit gəlirləri əldə edəcək.

**E.CƏFƏRLİ**

# COP29 çərçivəsində Mərkəzi Asiyada Enerji keçidi üzrə İnvestisiya Forumu keçirilib

Bakıda keçirilən COP29 çərçivəsində Mərkəzi Asiyada Enerji keçidi üzrə İnvestisiya Forumu keçirilib.

Azərbaycanın Energetika Nazirliyi ilə Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) təşkilatçılığı ilə keçirilən tədbirdə Mərkəzi Asiya respublikalarının dövlət və özəl sektorun nümayəndələri, beynəlxalq ekspertlər iştirak ediblər.

IRENA-nın baş direktoru Françeska La Kamera çıxış edərək müasir dünya üçün “yaşıl” enerjinin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, təşkilatın mütəxəssisləri “yaşıl” enerji mərkəzlərini müəyyən edərək sərmayə yatırılması üçün tövsiyələr verir. Qlobal miqyasda karbon emissiyasının azaldılması və sıfır emissiyaya nail olmaq üçün “yaşıl” enerji istehsalının artırılması zəruridir. Françeska La Kamera nəzərə çatdırıb ki, Azərbaycanda bu istiqamətdə əsaslı işlər görülür: “Bunun üçün ölkənin potensialı da var. “Yaşıl” enerjinin artması, karbonun tullantılarının da azalmasına səbəb olur”.

Energetika nazirinin müavini Orxan Zeynalov çıxış edərək Azərbaycanda yaşıl enerji istehsalı istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd edib ki, sıfır emissiyaya nail olmağın başlıca yolu alternativ enerji mənbələrindən səmərəli istifadə etməkdən keçir: “Ekosistemin qorunub saxlanılması üçün Azərbaycan tədricən enerji transformasiyasını həyata keçirir. İriмiqyaslı layihələrin reallaşması üçün xarici investorlar dəvət olunub və onların sərmayəsi əsasında Qarabağda, Naxçıvanda, Abşeronda Günəş və külək enerji stansiyaları inşa olunur. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə enerji dəhlizi yaratmaq imkanı var. Bununla bağlı Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında sənəd imzalanıb. Azərbaycan Mərkəzi Asiyadan Avropaya uzanan enerji dəhlizinin mərkəzi olacaq. Mərkəzi Asiya respublikalarında istehsal olunan “yaşıl” enerji Avropaya Azərbaycan üzərindən ixrac ediləcək”.



Sonra Koreya Respublikasının Enerji Agentliyinin prezidenti Songhun Li, Qlobal Enerji Alyansının vitse-prezidenti Kitti Bu, IRENA-nın ölkə alaqələri və tərəfdaşlıqlar üzrə direktoru Gürbüz Könül və digərləri çıxış edərək Mərkəzi Asiyanın yaşıl enerji istehsalı üçün münbit region olduğunu bildiriblər. Qeyd olunub ki, Qazaxıstan və Özbəkistan ilə yanaşı, Türkmənistan, Qırğızıstan və Türkmənistanda da irihəcmli Günəş elektrik stansiyaları inşa etmək mümkündür. Bu işlərin həyata keçirilməsi üçün beynəlxalq sərmayədarlarla danışıqlar aparmaq və sərmayə yatırmaları üçün şərait yaratmaq lazımdır.

Nəzərə çatdırılıb ki, Qazaxıstan 2025-ci ildə ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payını 6 faizə, 2030-cu ilə qədər 10 faizə çatdırmağı planlaşdırır. Qazaxıstanın külək potensialı ildə 1 trilyon 820 milyard kilovat/saatdan çoxdur, Günəş enerjisi isə 1 trilyon kilovat/saatdır.

Özbəkistan hökuməti 2030-cu ilə qədər ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payını 25 faizə çatdırmağı hədəfləyir. Ölkədə külək enerjisinin potensialı 520 GVt, günəş enerjisinin potensialı isə 2 trilyon 58 milyard kVt təşkil edir.

Çıxışlardan sonra sessiya panel müzakirələri ilə davam edib. Beynəlxalq ekspertlər və mütəxəssislər sessiya iştirakçılarının suallarını cavablandırıblar.

# Avropa “val”ı dəyişir...

## Rusiya - Ukrayna müharibəsinə münasibətdə yenilik

## Şolts Putinə Qərbin “nömrəsi” ilə zəng edir

Son günlərdə qlobal münasibətlər sisteminin axarında yeniliklər hiss edilməyə başlayıb. Bu isə özlüyündə qarşıdakı yaxın müddət üçün yeni perspektivlər vəd edir. Xüsusilə, dünyanın əsas diqqət mərkəzində olan bir sıra məsələlərə yanaşmada yeni strategiyaların işə düşməsi gözlənilir.

Bu mənada, Ukrayna-Rusiya münaqişəsinə baxış da yeni dövrün əsas prioritetlərindən sayılır. Yeri gəlmişkən, Almaniya kansleri Olaf Şolts ilə Rusiya prezidenti Vladimir Putin arasında baş tutmuş son telefon zənginin detalları da ortaya bir sıra yeni məqamların çıxdığını təsdiqləyir. Kremlin mətbuat xidmətinin yaydığı məlumata görə, telefon danışığı Berlinin təşəbbüsü ilə baş tutub. Telefon danışığının təfərrüatlarına gəldikdə isə Rusiya tərəfinin yaydığı məlumata görə, Putin Rusiyanın danışıqlardan heç bir zaman imtina etmədiyini və danışıqlara açıq olduğunu bildirib. “Ukrayna ilə bağlı mümkün razılaşmalar Rusiya Federasiyasının təhlükəsizlik maraqlarını nəzərə almalı, ərazi reallıqlarına əsaslanmalı və münaqişənin köklü səbəblərini aradan qaldırmalıdır”, - deyə Kremlin telefon zəngi ilə bağlı açıqlamasında bildirilib.

Telefon danışığı zamanı ikitərəfli əlaqələrə də toxunulub - Putin qeyd edib ki, Rusiya enerji sektorunda öz öhdəliklərini həmişə aydın şəkildə yerinə yetirib və Almaniya maraq göstərəcəyi təqdirdə qarşılıqlı faydalı əməkdaşlığa hazırdır. İki dövlət lideri Yaxın Şərqdə gərginliyi azaltmaq səyləri barədə də danışıb.

### Qərb “nəbz” yoxlayır - Rusiya Almaniya ilə razılaşsa...



Almaniya mətbuatı isə 2 il yarımdan sonra edilən bu zəngi Qərbin Rusiyanın “reaksiyasını yoxlamaq” cəhdi adlandırıb. Bu telefon zənginin əvvəlcədən planlaşdırıldığı bildirilsə də, bəzi siyasi analitiklər bunu inandırıcı saymayıb - “Der Spiegel” zəngin G7 tərəfdaşları ilə razılaşdırıldığını bildirir. Bu mənada, zəngin ABŞ-da keçirilən prezident seçkilərindən sonra razılaşdırılması daha inandırıcı görünür. Təbii ki, digər avropalı həmkarları da Şolts ilə “eyni fikirdə” olsalar da Almaniya hökumətinin başçısının irəli verilməsinin səbəbləri var. XX əsrdə baş vermiş iki dünya müharibəsinin əsas tərəfləri sayılan Almaniya ilə Rusiya arasındakı razılaşma “göy” və “qırmızı” qanad arasında yeni münasibətlərə təkan verə bilər. Bu mənada, Avropanın hazırkı lideri sayılan Almaniya yenidən “məsələyə qarışır”.

Qeyd edək ki, bir neçə gün öncə Vladimir Putinin ABŞ-ın 47-ci prezidenti seçilmiş Donald Trampla telefonla danışdığı iddia edilsə də, Kreml bu iddiaları yalanlayıb - “The Washington Post”un yaydığı bu məlumatı təkzib edən Kremlin mətbuat xidmətinin rəhbəri Dmitriy Peskov belə bir telefon danışığının olmadığını deyib.

### Avrosentrist qrup niyə narahatdır?

Hər bir halda ABŞ-da keçirilən prezident seçkilərinin 2025-ci ildə qlobal siyasətə fərqli təsirləri istisna edilə bilməz. Hələ seçki kampaniyası dövründə Ukrayna müharibəsini bitirəcəyini bəyan edən Donald Trampın iqtisadi strategiyası son 4 ildə yürüdülən siyasətdən fərqlənir - bunu hiss edən Avropa isə artıq narahatlıq keçirməyə başlayıb. Vaşinqton ilə Moskva arasında münasibətlərin yeni dinamika qazanması “köhnə qitə”ni “fakt” qarşısında qoya bilər - səbəb isə Rusiyaya tətbiq olunan iqtisadi sanksiyaların daha çox Avropa üzərindən həyata keçirilməsi ilə bağlıdır. Başqa sözlə, Rusiyaya qarşı embarqolar yalnız Avropanın şərq ilə iqtisadi münasibətlərini tam sıradan çıxarıb və ABŞ-ın oyunu tərk edəcəyi halda, Avropa ortada tək qalacaq.

Buna paralel olaraq Kiyevin silahsursatla təmin olunması ilə bağlı “öhdəliklər” məsələsi də var - ABŞ-ın təminatdan imtina edəcəyi halda avtomatik olaraq Kiyevin əsas “dayağı” məhz Mərkəzi Avropa sayılacaq. Mərkəzi Avropanın aparıcı dövlətləri sayılan “avrosentrist” qrup isə indiki halda bu təminatı həyata keçirmək iqtidarında deyil.

### Miqrant qorxusu, soyuq qış xofu...

Digər bir əsas məqam isə Ukraynadan Avropaya köç etmiş miqrantların gələcəyi məsələsidir. Avropanın bu və ya digər şəkildə “kollektiv Qərb”in “portmanatından” maliyyələşdirdiyi miqrantları öz gücü ilə saxlaya bilməyəcəyi faktdır - beləliklə, ABŞ-ın Moskva ilə radikal münasibətləri ılıqlaşdırması Qərbin bəzi iqtisadi “reallıqlarla” qarşı-qarşıya qalmasına da yol açacaq.

İkinci bir tərəfdən, artıq bir sıra Qərb mətbuatı ABŞ-ın yeni dövrdə Avropa ilə ticarət münasibətlərində yeni tarif siyasəti yürüdəcəyini yazır - bu halda, “köhnə qitə”nin onsuz da çətin vəziyyətdə olan enerji təminatı məsələsi yenidən gündəmə gələ bilər. Avropanı narahat edən ən əsas məsələlərdən biri məhz budur - qarşıdan gələn qış mövsümü Ukrayna sülhü ilə yanaşı, Avropa üçün dondurucu perspektiv də vəd edir...

### Kremlin şərtləri dəyişməyib...

Vurğulandığı kimi, Almaniya kansleri Moskvanı ədalətli və davamlı sülhün bərqərar olması üçün Ukrayna ilə danışıqlar aparmağa dəvət edib. “Reuters”in məlumatına görə, bu çağırış Ukraynanın silah və şəxsi heyət çatışmazlığı səbəbindən getdikcə daha çətin vəziyyətə düşdüyü zamana təsadüf edir.

Rusiya mətbuatı yazır ki, Putin hazırkı vəziyyətin səbəblərini izah edərkən NATO-nun “genişlənmə” planına da işarə edib. Ukrayna ərazisindən anti-Rusiya körpüsü yaratmağa, ölkəsinin təhlükəsizliyini təhdid altına düşməsinə imkan verməyəcəyini bildirən Rusiya lideri bununla belə danışıqlardan da imtina edilmədiyini deyir - hansı ki, bu ilin iyununda Putin Moskvanın atəşkəs və danışıqların başlaması üçün şərtlərini açıqlamışdı:

- Ukrayna qoşunları Donbass, Zaporojye və Xerson vilayətləri ərazisindən çıxarılmalı;

- Bu bölgələrin və Krımın Rusiyanın bir hissəsi kimi tanınması;

- Ukrayna NATO-ya üzv olmaqdan imtina etməli və onun nüvəsiz ölkə statusu yenidən təsdiqlənməli;

- İqtisadi sanksiyaların ləğvi.

Zelenski isə öz növbəsində bu şərtləri “ultimatum” adlandırmışdı və 1991-ci il sərhədlərinə qayıtmaqda israr etmişdi.




### Zelenskinin cəhdi alınmadı...

Bu arada Ukrayna prezidenti Vladimir Zelenski Almaniya kansleri Olaf Şoltsun Vladimir Putinlə telefon danışığını tənqid edib. Onun sözlərinə görə, Şoltsun açdığı “cığır” digər liderlərin də Moskva ilə danışıqlara başlaya bilmə ehtimalını formalaşdırır. Bu isə çox güman ki, “təcrid vəziyyətini yüngülləşdirəcək”. “Reuters”in məlumatına görə, Ukrayna prezidenti bir müddət öncə Şoltsu Moskvaya telefon zəngi etməkdən çəkindirməyə çalışıb, amma bu alınmayıb.

**P.İSMAYILOV**

# Erməni “bağça”sının calağı...

## Borrelin kolonialist və korrupsioner tablosu

Yeni dünya nizamı fərqli bir mənzərə formalaşdırmaqdadır. Bir müddət öncəyə qədər təkqütblü transformasiya, “mərkəzə meyllənmə siyasəti” əsas götürülürdüsə, fərqli pərdələr altında neokolonialist maraqların güclü təsiri təbliğ edilirdisə, artıq bu tendensiya sürətlə dəyişməkdədir. Artıq kiçik dövlətlər öz maraqlarının qorunması üçün siyasi səfərbərlik “elan” edir, özünü “dünyanın sahibi” sayan bir sıra güc mərkəzlərinə qarşı direniş göstərirlər. Bu isə açıq kontekstdə olmasa da, fərqli müstəvilərdə qarşıdurmalara yol açır - özünü “ali kateqoriya” hesab edən ölkələr “ikinci növ” saydıqları ölkələrin öz maraqlarını qorunması üçün səy göstərməsini həzm edə bilmir - hətta bunun qarşısını almaq üçün beynəlxalq hüquqa qarşı gəlməkdən, beynəlxalq ədaləti ikinci plana keçirməkdən, özünün “irqçi simasını” açıq şəkildə göstərməkdən çəkinmirlər. Bu işdə isə daha çox həmin “güc mərkəzlərinin “çirkli dəyənəkləri” işə yarayır...

### Neokolonialist hücumların “dirijoru”...

“Cozef Borrel” adı geniş oxucu auditoriyasına yaxşı tanışdır. Sənəd üzərində statusu “Avropa İttifaqının xarici siyasət üzrə ali nümayəndəsi” olsa da, Qərb neokolonializminin kiçik dövlətlər üzərinə hücumlarının əsas “drijoru” sayılan bu şəxs yeni dövrün yeni nizamını həzm edə bilməyən mənafeçi “siyasi rupor” ordusunun önündə gəlir. İrqçi “fikirləri”, qeyri-demokratik yanaşmaları, antisemit mövqeyi Borrelin əsl kimliyini “ələ verir”. Qlobal dünyaya “Aİ-nin siyasi siması” kimi təqdim edilən bu şəxsin alt-qatdakı nasist xisləti bütün çılpaqlığı ilə ortadadır. Adı daim rüşvət qalmaqallarında hallanan Avropa Parlamentinə rəhbərlik etmiş, sonradan isə qaranlıq yollarla Aİ-nin vəzifə tramplinınə dırmanan Borrelin təvəllüdü belə “dodaqqaçırdıcıdır” - 1947-ci ildə separatçı bölgədə dünyaya göz açan Borrelin anadan olma tarixi qondarma “erməni soyqırımı” gününə “təsadüf edib. Təbii ki, bütün təsadüflər zərurətdən qaynaqlanır - Borrelin də qaranlıq “həyat hekayəsi” məhz qondarma iddia və yalan üzərindən “pöhrələnməyə” başlayıb. Siyasi baxışlarına görə, “sosialist” mövqeli sayılsa da, Borrelin bütün həyat fəaliyyəti və “siyasi prioritetləri” lokal maraqlar uğrunda savaşa, siyasi və iqtisadi istismara, hüquqların məhdudlaşdırılmasına hədəflənib - başqa sözlə, “sosialist” pərdəsi altında “quldarlıq” arzuları Borrelin bütün siyasi həyatını hörümçək toru kimi əhatə edib.

### Rüşvət dairəsinin “tənbölən”i...

Təsadüfi deyil ki, ayrı-ayrı zamanlarda və müxtəlif vəzifələrdə Borrelin şəffaflıq məsələlərinə görə sorğulanıb. İddialara görə, onun maliyyə fəaliyyəti və bəzi qərarları şübhə doğurub - hətta bəzi Qərb siyasətçiləri məşhur “Eva Kaini korrupsiyası” zamanı Borrelin “canfəşanlığını” onun özünü prosesdən təcrid etmək arzusu ilə əlaqələndirirdilər. Bundan başqa, bəzi Avropa strukturlarını özünün “rüşvət dairəsində” saxalayan lobbiçi milyarderlər, qızıl-zinət alverçiləri, silah qaçaqçıları, narkotrafikə başçılıq edən mafioz qrupların başçıları arasında da Borrellə əlaqəsini, dostluğunu gizlətməyən şəxslər var. Borelin hətta həmin korrupsioner cinayətkar şəbəkə ilə rəsmi strukturlar arasında “körpü” olduğu da bildirilir...

### “İrqçi”, “kolonialist” Borrel...

Borrelin qeyri-standart kimliyi barədə bir sıra nüanslara diqqət yetirək - onu xarakterizə edərkən bir məqam xüsusilə diqqət çəkir. Bu şəxsin əsas hədəfi müstəqil siyasət yürüdən, “səfirliyini etdiyi gücün” əmr və sifarişləri ilə oturub durmayan dövlətlər və şəxslərdir. İkili standartlı yanaşmaları ilə “məşhur” olan Borel fərqli ölkələrdə baş verən eyni mahiyyətli hadisələri özünün rakursundan “izah” etməkdə “ustadır” - xüsusilə, “əli çatmadığı” məkanlara qarşı hücum kampaniyaları təşkil etməkdə mahirdir. Təsadüfi deyil ki, bir çox fərqli coğrafiyalarda yerləşən ölkələrin dövlət başçıları Borreli “irqçi” və “kolonialist” adlandırıblar. Bu tənqidlər, xüsusilə, Borrelin “dili ilə” fərqli dövlətlərin daxili siyasətinə qarışmaqdan yana səsləndirilib.



### Adı fərqli qalmaqallarda hallanır...

Cozef Borrel ilə bağlı yayılan xəbərlər arasında onun məşhur “Qatargate” skandalında dolayı əlaqəsi və digər potensial suistifadə hallarına dair ittihamlar da yer almaqdadır. Bu “skandal” Avropa Parlamentində fərqli ölkələrdən gələn rüşvətlərlə bağlı geniş istintaqa yol açmışdı - eyni zamanda, Borrel və digər yüksək rütbəli Avropa rəsmilərinin xaricə rəsmi səfərlərdə bəzi hallarda yerli hökumətlərin təqdim etdiyi pulsuz otel yerləşmələrindən faydalandıqları bildirilirdi. Bu, Aİ-dəki şəffaflıq məsələlərini yenidən “gündəmə” gətirmişdi.

### “Siyasi intihar” və ya Borrelin “gülsüz bağçası”...

“Avropa bağçası və cəngəllik”lə bağlı “məşhur çıxışı” isə Borrelin özünüifşası idi. Bu, bir siyasətçinin “siyasi intiharı” da adlana bilər - bir yandan qlobal demokratiyadan bəhs edən, insan hüquqlarından dəm vuran Borrelin demək olar ki, kiçik bir coğrafi ərazini təcrid etməklə dünyanı “cəngəllik” adlandırması “siyasi dəyənəyin” “iç dünyasını” ortaya qoyur:

- O, qeyri-etik ritorika və qeyri-insani mövqeyi ilə mədəniyyətlər arasında fərq təsviri yaradır;

- Bu çıxış onun kolonialist və irqçi baxışlara malik olduğundan xəbər verir;

- Borrel bu fikirləri ilə müasir dövrdə insan hüquq və azadlıqlarına fərqli standartlar tətbiq etmək deməkdir.

İllərdir ki, “erməni bağçası”nın calağı olmaq üçün əldən-ayaqdan gedən Borrel bununla tək özünün deyil, təmsil etdiyi “kəsimin” dünyaya baxışına aydınlıq gətirir.

### Borrel dünyanı bəyənmirsə...

Bir mühüm məqam isə onun “cəngəllik” adlandırdığı “dünyada” baş verənlərə müdaxilə cəhdləridir. Ortada təzad var - əgər Borrel və onun kimilər dünyanın Avropadan kənar hissəsini “bəyənmirsə”, nə üçün orada baş verənlərə təsir göstərmək üçün bütün gücünü səfərbər edir? Əgər Borrel Avropadan kənar regionları “ikinci dərəcəli” qiymətləndirirsə, niyə öz “sərhədlərindən” kənarda baş verənlərə dil uzadır?

COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitindəki çıxışında Prezident İlham Əliyev bildirib ki, əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! “Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın”.

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Gəncliyin ən gözəl çağı...

## Beynəlxalq Tələbələr Günüdür

Tələbə olmaq sadəcə, dərs və imtahanlardan ibarət deyil. Tələbəlik bilik əldə etmənin, özümüzü axtarmağın, yeni ideyaları qəbul etməyin, şəxsi inkişafın və bir ömür boyu davam edən əlaqələr qurmağın yoludur. Ona görə də inkişaf etmiş hər bir ölkədə tələbələrə diqqət yüksək səviyyədədir. Bu istiqamətdə mühüm proqramlar həyata keçirilir, tələbələrə müəyyən güzəştlər edilir, təhsil keyfiyyətinin artırılması üçün tələbələrə stimullar verilir.

Ölkəmizdə tələbələrə göstərilən diqqət və qayğı hər gün artmaqdadır. Prezident İlham Əliyevin tələbələrə diqqəti onu təsdiqləyir ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxt ilə məhdudlaşmır, bölgələri də əhatə edir.

### Gələcəyə qoyulan sərmayə...

Məlumdur ki, dünyada tələbələrə təhsil kreditlərinin verilməsi təcrübəsi geniş yayılıb. Ayrı-ayrı ölkələrdə tələbələrin təhsil kreditləri ilə təminatına ötən əsrin 60-cı illərindən başlanılıb. Hazırda dünyanın 60-dan çox ölkəsində bu təcrübədən istifadə olunur. Təbii ki, uzun illər ərzində tələbələrə təhsil kreditlərinin verilməsində ümumi qaydalar formalaşıb. Eyni zamanda, hər bir ölkə öz imkanlarından, dövlət siyasətinin prioritetlərindən və bu kimi digər amillərdən çıxış edərək tələbələrə təhsil kreditlərinin verilməsində özünün fərdi yanaşmasını da tətbiq edir.

Tələbələrə təhsil kreditlərinin verilməsi ölkəmiz üçün də mühüm bir amildir. Buna görə də müvafiq qanunvericilik bazası hazırlanarkən dünyadakı qabaqcıl təcrübədən istifadə olunub. Müvafiq qanunvericilik bazası Prezident İlham Əliyevin 17 iyun 2021-ci il tarixində imzaladığı “Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Fərmana əsasən formalaşıb. Fərmanın icrasının təmin edilməsi məqsədilə Nazirlər Kabineti “Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” ayrıca Qərar qəbul edib. Qaydada təhsil tələbə kreditinin növləri və kreditdən istifadə hüququ, kreditin verilməsinə dair tələblər və tətbiq edilən güzəştlər müəyyənləşdirilib.

### Əlamətdar günün faciəvi tarixi...

Yeri gəlmişkən, noyabrın 17-si Beynəlxalq Tələbələr Günüdür. Beynəlxalq Tələbə günü gənclik bayramı kimi qəbul edilsə də, onun yaranma tarixi qanlı hadisələrlə bağlıdır.

İkinci Dünya müharibəsi dövründə Adolf Hitlerin işğal etdiyi ərazilərdən biri də Çexiya idi. Qəddarlığı ilə məşhurlaşan Adolf Hitleri və nasistləri faşistlikləri ilə çox yaxşı tanıyırıq. 16 noyabr 1939-cu ildə Praqada tələbələr və müəllimlər Respublika gününü qeyd etmək məqsədilə küçələrə axışdılar. Nasistlər bu aksiyanı vəhşicəsinə dağıtdılar və bu zaman tələbələrdən biri öldürüldü. Ölən tələbənin dəfni anti-nasist nümayişə çevrildi. Əsarətdə qalmaq istəməyən xalq və itirilmiş gənc bir həyat... Buna susmaq asan deyildi.

Qarşıdurmaya cavab olaraq almanlar Praqa tələbə yataqxanalarını mühasirəyə aldılar: 1200-dən çox tələbə sürgünə göndərildi, nümayişdə fəal iştirak edən 9 tələbə mühakimə edilmədən edam edildi. Sürgünə göndərilən tələbələrin çoxu sağ qala bilmədi. Nəticədə Adolf Hitler müharibə bitənə qədər Çexiya universitetlərinin fəaliyyətini dayandırdı. Belə dəhşətli hadisədən 2 il sonra 1941-ci ildə Beynəlxalq Tələbə Təşkilatı 17 noyabr tarixinin ölən gənclərin şərəfinə Beynəlxalq Tələbə Günü olaraq qeyd edilməsini qərara aldı.

***Yeganə BAYRAMOVA***

# COP29: Məşhur futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansı yaradılıb

Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) çərçivəsində “Qarabağ” komandasının təşəbbüsü ilə dünyanın tanınmış futbol klublarının iqlim naminə alyansının açılış tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, “Sky sports”un məşhur idman şərhçisi David Qarridonun moderatorluğu ilə təşkil olunan “İqlim naminə Futbol” tədbirində dünyanın bir sıra nüfuzlu futbol klubları iqlim dəyişmələrinə qarşı mübarizədə öz öhdəliklərini əks etdirən bəyanatlarla çıxış ediblər.

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanın Avropa və İslam Həmrəylik Oyunları, “Formula 1” kimi böyük turnirlərə və 2019-cu ildə UEFA Avropa Liqasının “Çelsi” və “Arsenal” (hər ikisi İngiltərə) komandaları arasında keçirilmiş final matçına ev sahibliyi etdiyini, Bakının idman tədbirlərinin mərkəzinə çevrildiyini xatırladıb. O, 4 milyarddan çox izləyiciyə sahib futbolun mühüm iqlim konfransının bir parçası olmasının əhəmiyyətindən danışıb. COP29-un baş danışıqçısı Yalçın Rəfiyev misilsiz təşəbbüsə rəhbərlik etdiyinə görə “Qarabağ”a, bu təşəbbüsün əhəmiyyətini dərk etdiyinə və dəstək verdiyinə görə Avropa Klublar Assosiasiyasına (ECA) təşəkkür edib. O, alyansın dünyada ən aktual problemlərindən biri olan iqlim dəyişikliyinin həllinə öz töhfəsini verəcəyini bildirib. “Qarabağ”ın prezidenti Tahir Gözəl isə dünyanın ən nüfuzlu klublarının bu təşəbbüs ətrafında toplaşmasının qürurverici hal olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu təşəbbüs futbolun iqlim dəyişmələrinə qarşı mübarizəsində populyarlığından istifadə etmək məqsədi daşıyır.



Sonra iqlim dəyişikliyi ilə mübarizədə idmanın təsiri haqqında geniş müzakirələr aparılıb. İqlimlə bağlı mövzularda daim həssas davranan, inkişaf edən və hazırda dünya futbolunda dayanıqlılıq lideri olan “Liverpul” və bu sahədə liderlərdən sayılan “Udineze” komandaları zəngin təcrübələrini digər klublarla bölüşüblər. Klublar dayanıqlılıqla bağlı sınaqdan keçirdikləri unikal layihələr barədə təqdimat ediblər.

Təqdimatlardan sonra tanınmış futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansı yaradılıb. Alyansda Ağdam təmsilçisi ilə yanaşı, iqlim dəyişikliyi ilə mübarizədə və dayanıqlılıq mövzularında böyük təcrübəyə malik 10 klub - “Liverpul”, “Tottenhem” (hər ikisi İngiltərə), “Atletiko Madrid”, “Real Betis” (hər ikisi İspaniya), “Fənərbağça”, “Qalatasaray” (hər ikisi Türkiyə), “Udineze” (İtaliya), “Portu” (Portuqaliya), “Flamenqo” (Braziliya) və “Malmö” (İsveç) yer alıb.

İqlim mövzusuna həssas yanaşan və bununla bağlı yaddaqalan layihələr reallaşdıran həmin klublar alyansın yaradılması barədə sənədə imza atıblar. Bununla da həmin 11 tanınmış klub qurumun yaradıcıları hesab olunub, öz öhdəliklərinin bəyannaməsini imzalamaqla və insanları iqlim dəyişmələri üçün hərəkətə keçməyə çağırmaqla həmrəylik nümayiş etdiriblər. Bu məqsədlə futbol klubları dayanıqlı təcrübələr tətbiq etmək, məlumatlılığı artırmaq, futbolun populyarlığından istifadə etməklə iqlim dəyişmələrinə qarşı mübarizəni təşviq etməyə, təkcə bir-biri ilə deyil, “İqlim Fəaliyyəti üçün UNFCCC İdman” da daxil olmaqla, digər müvafiq təşkilatlarla əməkdaşlıq etməyə hazır olduqlarını bildiriblər.

Qeyd edək ki, alyans COP29 Sədrliyi və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (Framework Convention on Climate Change, UN FCCC) dəstəyi, “Qarabağ” və Avropa Klublar Assosiasiyasının (ECA) birgə təşkilatçılığı ilə təsis olunub.

# ASD riskində əsas ekoloji faktor...




Son elmi tədqiqatların nəticələri göstərir ki, havanın çirklənməsi autizm spektri pozğunluğu (ASD) riskində ekoloji faktor kimi rol oynayır.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, “Brain Medicine” jurnalında dərc edilən bir araşdırmada alimlər bu barədə məlumat veriblər.

Elm adamları qeyd ediblər ki, havanın çirklənməsi, genetik və ətraf mühit təsirlərinin qarşılıqlı təsirini gücləndirərək neyroinkişafa zərərli təsir göstərə bilər. Hava çirkləndiriciləri arasında xüsusilə incə hissəciklər (PM2,5 və PM10), kükürd dioksid (SO?), azot oksidi (NO), azot dioksidi (NO?) və ozon (O?) autizmin yaranma riskində böyük rol oynayır. Bu çirkləndiricilər orqanizmdə oksidləşdirici stressə, neyroiltihaba və neyrotransmitter sistemində pozulmalara səbəb olur. Hamilə qadınlar və gənc uşaqlar, beynin həssas inkişaf mərhələlərinə görə daha yüksək risk altındadırlar.

Araşdırmalar göstərir ki, PM2,5 və PM10 kimi incə hissəciklər nəfəs yolu ilə orqanizmə daxil olaraq qan dövranına keçir və hətta plasenta maneəsini aşa bilər. Bu hissəciklərin prenatal mərhələdə məruz qalınması, xüsusilə hamiləliyin erkən dövründə ASD riskini artıra bilər.

Avtomobil emissiyaları və sənaye yanacaqları nəticəsində yaranan NO və NO? də autizm riski ilə əlaqələndirilib. Həmçinin O? (ozon) xüsusilə PM2,5 ilə birləşdikdə, inkişaf edən beyinə oksidləşdirici təsir göstərərək neyroinkişaf pozğunluqlarına səbəb ola bilər.

SO? və bəzi uçucu üzvi birləşmələr də hamilə qadınlarda və gənc uşaqlarda ASD riskini artıra bilər. Çirkləndiricilərin beyinə təsiri bir neçə mexanizm vasitəsilə baş verir: neyroiltihab, oksidləşdirici stress, epigenetik dəyişikliklər və endokrin sistemin pozulması. Xroniki iltihab və neyrotransmitter balanssızlıqları ASD riskini artıran əsas faktorlardan biridir.

Ümumiyyətlə, havanın çirklənməsinin ASD riskini artırdığı bu tədqiqatla bir daha vurğulanıb. Elm adamları, bu əlaqəni daha yaxşı anlamaq və profilaktik tədbirlər hazırlamaq üçün əlavə tədqiqatların vacibliyini qeyd edirlər. Hamiləlik və erkən uşaqlıq kimi həssas dövrlərdə havanın keyfiyyətinin artırılması ASD riskini azaltmağa kömək edə bilər.

# Dünyanın ən böyük mərcanı aşkarlanıb



Tədqiqatçılar Sakit okeanın cənub-qərbində dünyanın ən böyük mərcanını aşkar ediblər.

“Sinxua” agentliyi xəbər verir ki, mərcanın diametri 32 metr, hündürlüyü isə 5,5 metrdir. O, “National Geographic Pristine Seas” komandasının dəniz alimləri tərəfindən Solomon adalar qrupunun yaxınlığında aşkarlanıb.

Alimlərin sözlərinə görə, mərcan təxminən 1 milyard polip şəbəkəsindən ibarətdir, yaşı isə 300-500 il diapazonu arasındadır. “National Geographic” tədqiqatçısı Enrik Sala tapıntını mühüm elmi kəşf adlandırıb. Komanda mərcanın yaxşı vəziyyətdə olduğunu bildirsə də, qlobal istiləşmənin təsirlərindən sığortalanmadığı barədə xəbərdarlıq edib.

Sonrakı araşdırmalar göstərib ki, mərcan bir neçə dəniz heyvanı növü üçün mühüm sığınacaq və çoxalma yeridir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4809**
**Sifariş: 2584**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli